

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Birinci vitse-prezident: "Bütün məktəblilərə möhkəm cansağlığı, tükənməz enerji, əzmkarlıq və əla qiymətlər arzulayıram"



2


№ 169 (7094)

17 sentyabr 2024-cü il.
Qiyməti 60 qəpik


# ABŞ Dövlət katibi Antoni Blinken Prezident İlham Əliyevə zəng edib



3

*Sentyabrın 16-da ABŞ Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Antoni Blinken Ermənistanla Azərbaycan arasında davamlı sülhün əldə olunmasının vacibliyini vurğulayaraq, Amerika Birləşmiş Ştatlarının bu məqsədə nail olunması üçün bundan sonra da səylərini əsirgəməyəcəyini bildirib.*

# MÜƏMMALI MANEVRLƏR




4

## Dünya mediası Formula 1 Azərbaycan Qran-Prisini geniş işıqlandırıb


Gp Azerbaijan, Ferrari seconda con Leclerc. Sainz e Perez, incidente in extremis

4

## Ərzaq təhlükəsizliyini bu yolla təmin etmək olar



8

## Bakıda taksilər niyə yoxa çıxır?




9

## Toyun bahalısı yaxşıdır, yoxsa ucuzu?



15

## COP29 - nə gözləyirik və nə qazanacağıq?



7

# Azərbaycanda idmanın bütün növləri uğurla inkişaf edir



*Prezident İlham Əliyev Beynəlxalq Avtomobil Federasiyasının prezidentini qəbul edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Məhəmməd Ben Sulayemi qəbul edib. AZƏRTAC xəbər verir ki, Məhəmməd Ben Sulayem ötən ilin dekabrında Beynəlxalq Avtomobil Federasiyasının Baş Assambleyasının və Federasiyanın mükafatlandırma mərasiminin Bakıda keçirilməsinə verdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Qonaq Azərbaycan Avtomobil Federasiyası və klublar ilə sıx əlaqələrin mövcud olduğunu deyərək, əməkdaşlığın genişləndiyini vurğuladı.

Məhəmməd Ben Sulayem COP çərçivəsində Beynəlxalq Avtomobil Federasiyasının nəqliyyat sahəsində fəaliyyətə dəstək verəcəyini və bununla bağlı Federasiyanın mütəxəssislərinin ölkəmizlə əməkdaşlıq edəcəklərini bildirdi. Dövlətimizin başçısı Beynəlxalq Avtomobil Federasiyasının prezidentini COP29-a dəvət etdi.

# Birinci vitse-prezident: "Bütün məktəblilərə möhkəm cansağlığı, tükənməz enerji, əzmkarlıq və əla qiymətlər arzulayıram"



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən ölkəmizin müxtəlif bölgələrində inşa və təmir olunan təhsil müəssisələri ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir: "Heydər Əliyev Fondunun ölkənin təhsil sisteminə növbəti töhfəsi. Fondun dəstəyi ilə respublikanın müxtəlif bölgələrində inşa və təmir edilən təhsil müəssisələrinin açılışları davam edir. Bütün məktəblilərə möhkəm cansağlığı, gümrahlıq, tükənməz enerji, əzmkarlıq və əla qiymətlər arzulayıram! 16.09.2024".

# Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatına

Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə inamlı qələbə münasibətilə Yeni Azərbaycan Partiyasının bütün üzvlərini "AMANAT" Partiyası və şəxsən öz adımdan təbrik edirəm.

Seçicilərin əksəriyyətinin Yeni Azərbaycan Partiyasına səs verməsi vətəndaşların ölkənin aparıcı siyasi partiyasına yüksək etimadını göstərir. Azərbaycan vətəndaşları dayanıqlı iqtisadi inkişafın gücləndirilməsinə, cəmiyyətin konsolidasiyasına və xalqın rifahının yüksəldilməsinə yönəlmiş siyasi kursa geniş dəstək nümayiş etdirmişlər.

Partiyalarımızın əməkdaşlığı Qazaxıstan və Azərbaycan arasında strateji tərəfdaşlıq üçün mühüm amil rolunu oynayır. Biz münasibətlərimizin ortaq gələcəyinə inamla baxırıq. Bütün partiya üzvlərinə Azərbaycan Respublikasının firavanlığı naminə yeni uğurlar arzulayıram!

***Hörmətlə,***
***Daulet Kəribek***
***"AMANAT" Partiyasının İcra katibi***

# İranın Zəngəzur dəhlizi ilə bağlı iddiaları siyasi-iqtisadi xarakter daşıyır



İranın Zəngəzur dəhlizi ilə bağlı iddiaları siyasi-iqtisadi xarakter daşıyır. Bu fikri AZƏRTAC-a müsahibəsində hərbi-siyasi analitik, sosioloji elmlər namizədi, Belarus Milli Elmlər Akademiyası Fəlsəfə İnstitutunun baş elmi işçisi Aleksandr Tixanski ifadə edib.

Belaruslu analitik qeyd edib: "İran BRICS və ŞƏT-in üzvüdür və bu, Zəngəzur dəhlizi ətrafında yaranmış vəziyyətin fonunda heç də az əhəmiyyət kəsb edən amil deyil. Nəzərə almaq lazımdır ki, məhz Ermənistanla Azərbaycan arasındakı Zəngəzur dəhlizi - Azərbaycanın əsas ərazisi ilə Naxçıvan arasında quru əlaqəni təmin etmək üçün nəzərdə tutulmuş nəqliyyat marşrutu ilə bağlı mübahisələrdə İran faktoru ortaya çıxıb. Bundan başqa, Tehran layihədən qəti şəkildə imtina etdiyini bu dəhlizi Bakı ilə birlikdə fəal şəkildə dəstəkləyən Moskvaya çatdırmaq üçün diplomatik addımlar atıb. Hesab olunur ki, Tehran müttəfiqi Ermənistanla əlaqəni itirməkdən qorxur, çünki onun ərazisindən salınmalı olan dəhliz daha çox əraziyə nəzarəti nəzərdə tutur. Amma başqa fikirlər də var: İranın iddiaları sırf iqtisadi xarakter daşıyır, əlbəttə, deyirlər ki, guya Tehran dəhlizin Araz çayının sahilindən, öz ərazisindən keçməsini istəyir".

Azərbaycanın Zəngəzur dəhlizinin çəkilməsi məsələsindən imtina etdiyini deyən, bunu İrəvanla sülhün bağlanması üzrə danışıqlarda sıçrayış əldə etmək istəyi ilə əsaslandıran A.Tixanski bildirib ki, hazırda ABŞ-ın arzuladığı Çin-Qazaxıstan-Azərbaycan-Ermənistan-Türkiyə "dəhlizi" sual altındadır.

O, bununla bağlı Azərbaycan Prezidenti İlham Əliyevin Bakının Tehranla analoji layihə üzərində işləyəcəyini bildirən sözlərini xatırladıb. Analitikin fikrincə, Azərbaycan regional tərəfdaşlara arxalanıb, ilk növbədə, ABŞ-ı Ermənistanla danışıqlar prosesinə təsir imkanından məhrum edib. İkincisi, İrəvanın hələ mövcud olmayan "dəhlizə" çıxışını əngəlləyib.

Analitik diqqətə çatdırıb: "Gəlin, İranın ehtimal edilən diplomatik demarşına daha yaxından nəzər salaq. Məsələ ondadır ki, sentyabrın 2-də İran İslam Respublikasının Xarici İşlər Nazirliyi Rusiya səfiri Aleksey Dedovu görüşə çağırıb. İran XİN-dən sonra bildirilib: "Görüş zamanı İran rəsmisi (İran Xarici İşlər Nazirliyinin Avrasiya məsələləri şöbəsinin müdiri Müctəba Dəmirçilu) Qafqazdakı cari hadisələrlə bağlı fikirlərini bölüşüb. O, həmçinin İranın regionda sülh və sabitliyin bərpası və region ölkələri arasında əməkdaşlığın təşviqi istiqamətindəki mövqeyini vurğulayaraq əlavə edib ki, Tehran beynəlxalq səviyyədə tanınmış sərhədlərdə hər hansı dəyişikliyə və regionda geosiyasi dəyişikliklərə qarşıdır". Bəs bu bəyanatda Moskvanın mövqeyindən narazılıq əlamətləri haradadır? Ancaq Qərb və İran mediası, o cümlədən Britaniyanın "The Guardian" və İranın "Tasnim" agentliyi İran Xarici İşlər Nazirliyində keçirilən bu görüşü Moskva ilə Tehran arasında Zəngəzur dəhlizi ilə bağlı münasibətlərin soyumasının birmənalı təsdiqi kimi təqdim edib".

Onun sözlərinə görə, 2020-ci il üçtərəfli Bəyanatının imzalanmasından demək olar ki, dərhal sonra Ermənistan tərəfi bu sənəddə "Zəngəzur dəhlizi" sözlərinin olmadığını vurğulamağa başlayıb: "İrəvanda bu amili "Rusiya FTX Sərhəd Xidməti orqanlarının nəzarəti altında Sünik vasitəsilə Azərbaycanın əsas hissəsi arasında nəqliyyat marşrutunun çəkilməsi" (bəyanatda belə deyilir) üzrə razılaşmadan çıxmaq üçün əsas hesab edirlər. Xaricdən nəzarətlə bağlı bu bənd İranın bəzi siyasi və iqtisadi elitalarının da narazılığına səbəb olur. Bu arada, İran rəsmi səviyyədə Zəngəzur dəhlizi layihəsindən narazılığını yalnız bir dəfə bildirib; iyul ayında Ermənistanın baş naziri Nikol Paşinyanla görüşündə İranın dini lideri Əli Xamneyi bildirib ki, bu dəhliz "Ermənistanın maraqlarına cavab vermir". Qalan bəyanatlar isə kütləvi informasiya vasitələri tərəfindən iddia edilənlərdən daha rasional və təmkinlidir. Belə ki, sentyabrın 9-da İran Xarici İşlər Nazirliyinin nümayəndəsi Nəsir Kənani məsələyə aydınlıq gətirib: "Tehran Cənubi Qafqazın bütün ölkələrinin ərazi bütövlüyünə hörmət şərti ilə regionda nəqliyyat marşrutlarının bərpasını dəstəkləyir". Diplomat vurğulayıb: "İran tərəfi özünün mehriban qonşuluq siyasəti çərçivəsində Cənubi Qafqazda davamlı sülhün qorunmasına çalışır, region ölkələri və onların qonşuları arasında regional qarşılıqlı fəaliyyət üçün vahid mexanizm olan "3+3" formatından (Azərbaycan, Ermənistan, Gürcüstan + Rusiya, Türkiyə, İran) istifadə olunmasının tərəfdarıdır".

A.Tixanski İranın xarici işlər naziri Abbas Araqçinin bu mövzu ilə bağlı şərhini də xatırladıb və vurğulayıb: "Qonşularımızın ərazi bütövlüyünə şimaldan, cənubdan, şərqdən və ya qərbdən hər hansı təhdid və ya sərhədlərə yenidən baxılması qətiyyən qəbuledilməzdir. Bu, İran üçün qırmızı xətdir". Analitik qeyd edib ki, nə nazir, nə də onun müavinləri tərəfindən Rusiya Federasiyasına qarşı sərt bəyanatlar səsləndirilməyib.

Ekspert daha sonra qeyd edib: "Bu gün hələ də tam əminliklə deyə bilərik ki, İranın dəhlizlə bağlı iddiaları siyasi və iqtisadi xarakter daşıyır. Tehran öz dəhlizini yaratmaq istəyir və Türkiyənin regionda güclənməsindən qorxur. Bundan başqa, biz İranla Rusiya Federasiyası arasında çoxlu ziddiyyətləri, o cümlədən Cənubi Qafqazda baş verənlərlə bağlı fikir ayrılığını da yaddan çıxarmamalıyıq. İran bu bölgədə xarici aktorların mövcudluğunun artmasına həmişə çox həssas yanaşıb. Zəngəzur dəhlizinin açılması Türkiyənin Azərbaycan və Mərkəzi Asiyaya birbaşa çıxışı deməkdir ki, bu da Ankaranın regionda iştirakını artırır. Rusiyanın buna şərait yaratması Tehranda anlaşılmazlığa səbəb olur. İran rəsmiləri öz şərhlərində bunu açıq şəkildə ifadə etmirlər və tez-tez sərt ifadələrlə çıxış etmək üçün dövlətə bağlı xəbər agentliklərindən istifadə praktikasına əl atırlar, çünki konkret olaraq heç kim onlara görə məsuliyyət daşımır. Agentlik nə istəsə yaza bilər, o, formal olaraq, rəsmi şəxs deyil".

A.Tixanskinin sözlərinə görə, Rusiya Xarici İşlər Nazirliyi Türkiyə-Azərbaycan müttəfiqliyi kontekstində Zəngəzur dəhlizini israrla və davamlı tələb edəcək, Tehran isə bu layihəyə qarşı çıxacaq. "Beləliklə, müxtəlif geosiyasi aktorlar arasında manevrlər edən, hətta Rusiya Federasiyasının Zəngəzur dəhlizinə təkbaşına nəzarətini əngəlləməyə çalışan Qərbin qaydaları ilə oynayan İran öz təsirini gücləndirməyə çalışır. Düşünürəm ki, İran prezidenti Məsud Pezeşkian yaxın vaxtlarda Rusiya rəhbərliyinin mövqeyinə şəxsən aydınlıq gətirə bilər. Onun Kazanda keçiriləcək BRICS-in oktyabr sammitində iştirak edəcəyi artıq təsdiqlənib. İranın Rusiyadakı səfiri Kazem Cəlili bildirib ki, bu tədbir çərçivəsində Pezeşkian ilə Putin arasında danışıqlar planlaşdırılır. Oktyabr ayını gözləyirik", - deyə analitik sözlərini yekunlaşdırıb.

# Dünyamiqyaslı yarış təhlükəsiz məkanda



*Prezident İlham Əliyev: "Formula 1 Azərbaycanın dünyada daha çox tanıdılması baxımından ildən-ilə böyük rol oynayır"*



Bakı sayca səkkizinci dəfə Formula 1 Azərbaycan Qran-Prisinə ev sahibliyi etdi. Bu bir daha təsdiqləyir ki, Azərbaycanda idmanın inkişafı ən yüksək dövrünü yaşayır. İdmanın bugünkü inkişaf səviyyəsi Azərbaycan Prezidenti İlham Əliyevin həm dövlət başçısı, həm də Milli Olimpiya Komitəsinin rəhbəri kimi bu sahəyə ayırdığı diqqətin nəticəsidir. İdmanın inkişaf etdirilməsi istiqamətində görülən genişmiqyaslı işlər nəticəsində Azərbaycan Avropanın idman mərkəzlərindən birinə çevrilib və dünyanın idman ictimaiyyəti tərəfindən ciddi tərəfdaş kimi qəbul olunur. Vurğulamaq yerinə düşər ki, ölkəmizin idman sahəsində əldə etdiyi uğurlar beynəlxalq idman təşkilatları tərəfindən maraqla qarşılanır və ölkəmizdə saysız-hesabsız mötəbər beynəlxalq turnirlər, dünya və Avropa çempionatları keçirilir.

Azərbaycanın paytaxtı Bakı növbəti dəfə dünya əhəmiyyətli mötəbər idman yarışına ev sahibliyi etdi. Birinci Avropa Oyunlarından sonra Formula-1 kimi mühüm yarışın Bakıda keçirilməsi Azərbaycanın idman dövləti olduğunu, bu missiyanın ölkəmizin timsalında hər zaman özünü doğrultduğunu təsdiqləyir. Bütün bunlar ölkəmizin dünyada getdikcə artan nüfuzundan, siyasi və iqtisadi sahədə qazandığı uğurların yetərincə olmasından qaynaqlanır.

### TƏHLÜKƏSİZLİYİN ƏN YÜKSƏK SƏVİYYƏDƏ TƏMİN OLUNDUĞU MƏKAN

Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkə həyatının bütün sahələrində olduğu kimi, idmanın inkişafına yönəlmiş qərarların qəbulu, tədbirlərin reallaşması idman sahəsində ölkəmizin yüksək beynəlxalq nüfuz qazanmasına səbəb olub. İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, idmançıların peşəkar səviyyədə hazırlanmasına göstərilən qayğı öz müsbət nəticəsini verib. Son illərdə Bakıda və bütövlükdə, Azərbaycanda idman infrastrukturunun yaradılması istiqamətində böyük işlər görülüb. Bakı Olimpiya Stadionu, Tofiq Bəhramov adına Respublika Stadionu, Bakı Su İdmanı Sarayı, Bakı İdman Sarayı, "Baku Crystall Hall", Bakı Tennis Akademiyası, Heydər Əliyev adına İdman Arenası, "Bakcell Arena", Bakı Atıcılıq Mərkəzi, Bakı Ekspo Mərkəzi və digər idman kompleksləri müxtəlif növ yarışların keçirilməsinə imkan verir. İndi, nəinki paytaxt Bakıda, demək olar ki, ölkəmizin bütün bölgələrində müasir Olimpiya idman kompleksləri fəaliyyət göstərir. Dünyanın idman ictimaiyyətinin diqqətini çəkən Azərbaycanda - paytaxt Bakıda irimiqyaslı yarışlar yüksək səviyyədə təşkil olunub.

Təhlükəsizliyin ən yüksək səviyyədə təmin olunduğu Bakı treki ən sürətli yarışlar kateqoriyasına daxildir. Sülh, tərəfdaşlıq və mədəni müxtəliflik məsələlərinə töhfələrini verən Azərbaycan qitə və dünya miqyaslı tədbirlərə ev sahibliyi edən ölkə olaraq da tanınıb. Məlumdur ki, Bakıda keçirilən "Formula-1" üzrə dünya çempionatının tamaşaçı auditoriyası bütün qitələri əhatə etdi. Amerika, Avropa, Avstraliya, Asiya və Afrika ölkələrinin televiziya kanalları yarışları müntəzəm yayımlayırlar. Növbəti "Formula-1" ölkəmizdə həmişə olduğu kimi, yüksək səviyyədə keçirildi. Xatırladaq ki, "Formula-1" Yay Olimpiya Oyunları və futbol üzrə dünya çempionatından sonra öz kütləviliyinə görə üçüncü yerdə dayanır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Formula 1-in prezidenti və baş icraçı direktoru Stefano Domenikalini, Formula 1-in məsləhətçisi Flavio Briatoreni və britaniyalı supermodel Naomi Kempbelli qəbul edərkən, Formula 1-in növbəti dəfə ölkəmizdə keçirilməsindən məmnunluğunu bildirib. Prezident İlham Əliyev bu yarışların Azərbaycanın dünyada daha çox tanıdılması baxımından ildən-ilə böyük rol oynadığını qeyd edib.

Söhbət zamanı gələcək planlar barədə fikir mübadiləsi aparılıb. Formula 1-in Azərbaycanda avtomobil idmanının inkişafı sahəsinə verdiyi töhfələr də vurğulanıb. Həmçinin ölkəmizdə kartinqin inkişafı məsələlərinə toxunulub.

Görüşdə həmçinin COP29-un ölkəmizdə keçirilməsinin əhəmiyyəti qeyd edilib, ekologiya sahəsində davamlılıq məsələsində də Formula 1-in daha fəal olmasının önəmi vurğulanıb. Dövlətimizin başçısı qonaqları COP29 tədbirində iştiraka dəvət edib.

Bakının inkişafının onda dərin təəssürat hissi yaratdığını deyən Naomi Kempbell paytaxtda şahidi olduğu müasir infrastrukturu, o cümlədən məşhur memar Zaha Hadidin layihəsi olan Heydər Əliyev Mərkəzini məmnunluqla qeyd edib.

Məhəmməd Ben Sulayem COP çərçivəsində Beynəlxalq Avtomobil Federasiyasının nəqliyyat sahəsində fəaliyyətə dəstək verəcəyini və bununla bağlı Federasiyanın mütəxəssislərinin ölkəmizlə əməkdaşlıq edəcəklərini bildirib. Dövlətimizin başçısı Beynəlxalq Avtomobil Federasiyasının prezidentini COP29-a dəvət edib.

### BAKI YARIŞI İLİN ƏN YAXŞI QRAN-PRİLƏRİ ARASINDA YER ALIR

Yarış zamanı avtomobillər dənizkənarı bulvar boyunca hərəkət edərək, paytaxtımızın ən qədim hissəsi olan İçərişəhər Tarixi-Memarlıq Qoruğunun ətrafında dövr etdilər. Bu, çoxsaylı xarici televiziya tamaşaçılarına şəhərin mənzərəsini, tarixi yerlərini görməyə imkan yaratmış oldu. Xatırladaq ki, Bakıda ilk dəfə "Formula-1" Qran-Prisi 2016-cı ildə təşkil olunub. Baxımlılığı ilə seçilən Bakı yarışı həmişə ilin ən yaxşı Qran-Priləri arasında yer alır. Təhlükəsizlik, infrastruktur hazırlığı, kütləvi tədbirlərin keçirilməsi ilə bağlı təşkilati və texniki bazanın mövcudluğu bunun əyani göstəricisidir. Bakıda pilotlar qeyri-adi ab-havası ilə seçilən, əfsanəvi tarixi yerləri əhatə edən və heç bir yerdə bənzəri olmayan trekdə bir daha yarışdılar. Bu dəfə də Bakı dünya tamaşaçılarına maraqlı idman yarışı təqdim etməklə yanaşı, Azərbaycanın belə mötəbər yarışlara uğurla ev sahibliyi etdiyini, təşkilatçılıq bacarığını bir daha nümayiş etdirdi. Ölkəmizdəki uğurlu inkişaf, sabitlik, əmin-amanlıq beynəlxalq tədbirlərin keçirilməsi üçün Odlar diyarını əlverişli məkana çevirib. Ötən illərdə paytaxt Bakıda keçirilən "Formula-1" Avropa Qran-Prisi yarışlarını dünyanın 200-yə yaxın ölkəsində 500 milyondan çox azarkeş televiziya vasitəsilə izləmiş oldu. Beş yüz milyon televiziya tamaşaçısının Avropa Qran-Prisində ən güclü pilotların mübarizəsini izləməklə yanaşı, şəhərimizin gözəlliyi ilə tanış oldu.

Əlbəttə ki, Azərbaycan beynəlxalq nüfuzlu yarışlara yüksək səviyyədə ev sahibliyi edərkən qədim tarixi abidələrimiz diqqətdən kənarda qalmır. İnsanların televiziya vasitəsilə birbaşa izlədiyi yarışların keçirildiyi məkan şəhər halqası olduğundan, onlar təkcə avtomobilləri deyil, inkişaf etmiş Bakının gözəlliyini ətraflı görə bildilər. Təbii ki, paytaxtımızda keçirilən "Formula-1" yarışları yüksək standartlara cavab verir. Təhlükəsizlik, infrastruktur hazırlığı, kütləvi tədbirlərin keçirilməsi ilə bağlı təşkilati və texniki bazanın mövcudluğu bunun əyani göstəricisidir. Ölkəmizdə idman tədbirlərinin yüksək səviyyədə keçirilməsi və ədalətli şəkildə baş tutmasının nəticəsidir ki, Azərbaycan Prezidenti Cənab İlham Əliyev Ümumdünya Ədalətli Oyunlar Komissiyası tərəfindən, Birinci vitse-prezident Mehriban xanım Əliyeva isə Avropa Ədalətli Oyunlar Komissiyası tərəfindən yüksək mükafatlara layiq görülüblər.

*Nəzakət ƏLƏDDİNQIZI*

## ABŞ Dövlət katibi Antoni Blinken Prezident İlham Əliyevə zəng edib





Sentyabrın 16-da ABŞ Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Antoni Blinken Ermənistanla Azərbaycan arasında davamlı sülhün əldə olunmasının vacibliyini vurğulayaraq, Amerika Birləşmiş Ştatlarının bu məqsədə nail olunması üçün bundan sonra da səylərini əsirgəməyəcəyini bildirib. O, Ermənistanla Azərbaycan arasında sərhədlərin delimitasiyası sahəsində əldə edilmiş nailiyyətləri, o cümlədən dövlət sərhədinin delimitasiyası üzrə komissiyaların birgə fəaliyyəti haqqında Əsasnamənin müvafiq qaydada 2024-cü il avqustun 30-da imzalanmasını müsbət addım kimi qiymətləndirib.

Regionda artıq sülhün mövcud olduğunu deyən dövlətimizin başçısı vurğulayıb ki, məhz Azərbaycanın səyləri nəticəsində bölgəmizdə ədalətə və beynəlxalq hüquqa əsaslanan yeni reallıqlar və status-kvo yaranıb. Prezident İlham Əliyev Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin təşəbbüskarının da məhz ölkəmiz olduğunu qeyd edərək bu müqavilənin imzalanması üçün Ermənistanın öz Konstitusiyası və digər qanunvericí aktları əsasında Azərbaycana qarşı olan ərazi iddialarına son qoymasının, həmçinin keçmişin qalığı olan ATƏT-in Minsk qrupu və onunla bağlı olan bütün təsisatların fəaliyyətinə son qoyulmasının vacibliyini vurğulayıb. Sərhədlərin delimitasiyası məsələsinə toxunan Prezident İlham Əliyev ikitərəfli proses çərçivəsində əldə olunmuş müsbət nəticələri qeyd edib və Əsasnamə əsasında bu prosesin aparılacağını bildirib.

Telefon söhbəti zamanı COP29-un ölkəmizdə keçirilməsi məsələsinə toxunulub.

Antoni Blinken COP29-un uğurla keçirilməsi üçün ölkəsinin Azərbaycana dəstək göstərdiyini qeyd edərək Azərbaycan ilə ABŞ-ın COP komandalarının və heyətlərinin yaxından əməkdaşlıq etdiklərini vurğulayıb.

Bu əməkdaşlıqdan məmnunluğunu ifadə edən Prezident İlham Əliyev COP çərçivəsində iqlim maliyyələşdirilməsi ilə əlaqədar mühüm qərarların qəbul edilməsi ilə bağlı xüsusilə inkişaf etmiş dövlətlər tərəfindən konsensusun əldə ediləcəyinə ümidvar olduğunu deyib. Telefon danışığı zamanı Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərə dair fikir mübadiləsi aparılıb.

# Dünya mediası Formula 1 Azərbaycan Qran-Prisini geniş işıqlandırıb










## *Lekler yarışı necə uduzdu və Peresin uik-endi korlamasının səbəbi nədir?*







***A**zərbaycan paytaxtında Formula 1-in növbəti mərhələsi keçirildi. Xarici ölkələrin media orqanları bu idman hadisəsini geniş işıqlandırıb. Bakıda son dərəcə gərgin şəhər Azərbaycan Qran-Prisi keçirilib. Www.Championat.Com saytında yarışın davamlı rəqabət şəraitində keçdiyi və fəxri kürsü uğrunda mübarizənin başa çatdığı qeyd olunub.*

Yazıda diqqətə çatdırılıb: "Ardıcıl dördüncü dəfə Şarl Lekler Bakıda pouldan start götürdü və moneqasklılar yarışda qalib gəlməkdən məhrum oldular. Başlanğıcda Lekler öndə gəlirdi və hətta ilk seqmentdə altı saniyəlik boşluq yaratdı, amma deyəsən, hər şey "Ferrari"nin uğuruna doğru gedirdi.

Piastri ilk dəfə pit-stop etdi, Skuderiya bir dövrə sonra cavab verdi və bu altı saniyədə rəqiblərinə ötüb keçməyə imkan vermədilər. Düzdür, Şarlın üstünlüyündən cəmi saniyə yarım qaldı - vaxtın bir hissəsi mexaniklərin cüzi bir maneəsi səbəbindən itirildi.

Yarışın əvvəlində olduğu kimi, Lekler Piastrini qabaqlayıb və birinci seqmentin məntiqinə görə, ondan uzaqlaşmalı idi. Lakin təzə sərt trasda "McLaren" cüzi üstünlüyə malik idi - avstraliyalı "Ferrari"dən geri qalmadı və lazımi anda birinci dövrədə irəli atıldı. İlk məşqdə qəza, ikinci məşqdə avtomobildə yaranan problemlər Skuderiyanın gərgin işinə qismən mane oldu.

Üstəlik, Lekler sonradan təəssüfləndi ki, rəqibinə onu belə asanlıqla ötməyə icazə verdi, amma əks-hücum üçün hələ 30 dövrə qalmışdı. Təəssüf ki, bunu həyata keçirmək heç vaxt mümkün olmadı: aşağı enmə gücünə görə "McLaren" daha yüksək maksimum sürətə sahib idi və Şarl hər dəfə irəlidə qala bildi.

Nəhayət, finiş xəttinə yaxınlaşdıqda, çirkli havada davamlı mübarizə səbəbindən Leklerin avtomobilindəki təkərlər köhnəlməyə başladı, Şarl Piastridən geridə qaldı və Peresi az qala qaçırırdı. Təkərlər o qədər pis idi ki, moneqask podiuma heç çıxa bilməzdi. Ancaq bu, pilotun günahı deyil - Leklerin yerində avstraliyalı da eyni problemlərlə üzləşəcəkdi.

Oskar üçün bu qələbə Formula1-də ikinci idi və Macarıstandakı uğur komanda taktikası ilə bir arada onun şəxsi uğurunu kölgədə qoysa da, Bakıdakı zəfəri tam layiqli idi. Piastri bütün məsafə boyu təkərlərə nəzarət edə bildi, təzyiqə tab gətirdi, təmkin və inamla hərəkət etdi.

Yarışın əsas hadisələrindən biri podiumda yer uğrunda mübarizə aparan Karlos Sayns və Serxio Peresin qəzaya uğraması olub. Epizod Leklerin ilk dövrədə Çekonun hücumunu dəf edərək, rəqibini trasdan bir az itələməsi ilə başladı və bu da onu izləyən Saynsın "Red Bull"u ötməsinə kömək etdi".

Qeyd olunur ki, Lando Norris də bazar günü əla görünürdü. Uğursuz şənbə günündən sonra britaniyalı 15-ci yerə çıxdı və çətin başlanğıc, habelə gec pit-stopla alternativ strategiya seçdi.

Maksın yalnız beşinci olduğu yarışda Ferstappendən üç xal qazanmaq britaniyalı üçün ən yaxşı nəticə deyil. Lando üçün daha uğurlu yarış nəticəsini təsəvvür etmək çətindir, nəzərə alsaq ki, ona çox kömək edə biləcək təhlükəsizlik maşını heç vaxt trasa çıxmayıb. İdman nəşri vurğulayıb ki, "Ferrari" ardıcıl ikinci mərhələ üçün qələbə uğrunda mübarizə aparır, lakin bu, avtomobillə bağlı problemlərin bitməsi demək deyil. Monza və Bakıdakı treklər kifayət qədər spesifikdir və aşağı endirmə gücü ilə parametrlər tələb edir. Gələn həftə Sinqapur Qran-Prisi tamamilə fərqli trekdə keçiriləcək və o, bolidin əsl səviyyəsini göstərəcək. Nə olursa olsun, Maranellonun gələcəyə nikbinliklə baxmaq üçün səbəbi var.

Eyni zamanda, "Mercedes" də Sinqapurdakı yarışa böyük ümidlər bəsləyir, lakin bunun müxtəlif səbəbləri var. Yay fasiləsinə qədər Almaniya komandası üçün işlər yaxşılaşmağa başladı, pilotlar üç qələbə qazandılar, amma indi maşında yenə sürət çatışmır. Son üç yarışda toplanan xallara görə, "Mercedes" dörd lider komanda arasında ən pisi olub.

Bundan başqa, İtaliyanın aparıcı mətbu orqanları Bakıda keçirilən Formula 1 Azərbaycan Qran-Prisini diqqət mərkəzində saxlayıb.

Belə ki, "Corriere dello Sport", "Autosprint", "Sky sport", "Tuttosport", "Corriere della Sera", "Rai", "La Reppublica" və "Ansa" kimi informasiya agentliklərinin yaydığı materiallarda Bakının 2016-cı ildən Formula 1-ə ev sahibi etdiyi, pilotların Bakı Şəhər Halqasında iki saat ərzində 51 dövrə vurduğu bildirilib. "McLaren" komandasının avstraliyalı pilotu Oskar Piastrinin Formula 1 üzrə Azərbaycan Qran-Prisində podiumun ən yüksək pilləsinə qaldığı, Şarl Leklerin ("Ferrari") ikinci, Corc Rassellın ("Mercedes") isə üçüncü olduğu diqqətə çatdırılır.

Məlumat verilir ki, sentyabrın 13-də keçirilmiş ikinci sərbəst yürüşdə "Ferrari"də çıxış edən monakolu Şarl Lekler finişə hamıdan tez çatıb. Şarl Lekler ötən gün təşkil olunmuş sıralama turunda isə ən yaxşı nəticəyə imza atıb. Azərbaycanın yarışlara səkkizinci dəfə ev sahibliyi etdiyi, Bakı şəhər halqasının 2026-cı ilədək Formula 1 təqviminə əlavə olunduğu bildirilib.













# “Yaşıl dünya naminə həmrəylik ili"nə töhfə

## Dövlət başçısı "Xaqani" bağında və ətraf ərazilərdə aparılmış abadlıq-yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub

***Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə ölkəmizin hər yerində olduğu kimi, paytaxt Bakımızda da parkların və xiyabanların əsaslı şəkildə yenidən qurulması və yeni parkların salınması, sakinlərin və şəhərimizin qonaqlarının rahatlığı üçün müasir istirahət guşələrinin yaradılması istiqamətində son illərdə ardıcıl tədbirlər davam etdirilir. ”Yaşıl dünya naminə həmrəylik ili”ndə yeni parkların və yaşıllıq zolaqlarının salınması, əhaliyə xidmət göstərən müasir infrastrukturun yaradılması Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlərdəndir.***

Bakının simasına yeni-yeni bənzərsiz naxışlar vurulub, gözəl park və xiyabanlar, geniş prospektlər, möhtəşəm və modern binalar, meydanlar və körpülər paytaxtımızın ayrılmaz atributları sırasındadır. Qədimlik və müasirliyin heyrətamiz harmoniyası şəhərimizə özünəməxsus yaraşıq verir. Paytaxtımız hər tərəfli gözəlləşir. Hər yerdə aparılan-abadlıq quruculuq işləri onun simasını köklü şəkildə dəyişib, infrastruktur təminatı, kommunal xidmətlərin keyfiyyəti yaxşılaşıb, əhalinin rifahı əhəmiyyətli dərəcədə yüksəlib. Dünyanın qədim neft sənayesi mərkəzi olan paytaxt Bakı da qısa müddətdə ən iri şəhərlərdən birinə çevrilərək özünün təkrarolunmaz simasını əldə edib. Bakıda həyata keçirilən ardıcıl inkişaf prosesi şəhərimizin tarixi ilə müasirliyini özündə birləşdirərək onun tamamilə yeni bir simasını təqdim edir.

Bakının Səbail rayonunda yerləşən ”Xaqani” bağında və ətraf ərazilərdə abadlıq-yenidənqurma işləri aparılıb. Bakının Səbail rayonunda yerləşən ”Xaqani” bağının mövcud ərazisi genişləndirilib, istirahət guşəsinin ətrafındakı Rəsul Rza, Qoqol və Xaqani küçələrində avtomobil yolları ləğv edilərək piyadaların istifadəsinə verilib. Ümumi ərazisi 1,4 hektar olan bağın ərazisində yaşıllaşdırma, işıqlandırma işləri görülüb, müasir oturacaqlar quraşdırılıb, uşaq əyləncə zonası yaradılıb və ətrafda olan yaşayış binalarında təmir-bərpa işləri aparılıb. Bu, dövlətimizin başçısının Bakı şəhərində parkların, xiyabanların əsaslı təmiri və yenidən qurulması ilə bağlı tapşırıqlarına əsasən abadlaşdırılan növbəti istirahət guşələrindən biridir. Şəhərin mərkəzində yerləşən bağda sakinlərin istirahəti üçün qısa müddətdə gözəl şərait yaradılıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də ”Xaqani” bağında və ətraf ərazilərdə aparılmış abadlıq-yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub. Dövlətimizin başçısına bağda həyata keçirilən abadlıq-yenidənqurma işləri barədə məlumat verilib.

### TURİSTLƏRİN İSTİRAHƏTİNİN SƏMƏRƏLİ TƏŞKİLİ

Bu bağın Formula 1 Azərbaycan Qran-



Prisinin keçirildiyi bir zamanda və Bakının ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində istifadəyə verilməsi ölkəmizə gələcək turistlərin istirahətinin səmərəli təşkilinə də böyük töhfədir.

Paytaxtımızda ən müasir parklar və yeni yaşıllıq zolaqları salınır, Bakının qədim tarixi memarlıq nümunələri bərpa edilir və müasir binalar tikilib istifadəyə verilir. Bu işlərin hamısı şəhərə daha çox gözəllik və kolorit verir, məhz bunun sayəsində Azərbaycan paytaxtı insanların həyatı və asudə vaxt keçirməsi üçün rahat məkana çevrilir. Yeni parkların salınması və mövcud olanların yenidən qurulması, ”Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində tədbirlər də ətraf mühitin sağlamlaşdırılması işinə mühüm töhfə verir.

Xatırlatmaq yerinə düşər ki, Nərimanov rayonu ərazisində yenidən qurulan Nərimanov parkı da Bakı şəhərinin simasının daha da gözəlləşməsi və paytaxt sakinlərinin istirahəti baxımından olduqca əhəmiyyətlidir. Nərimanov parkının yenidən qurulması bu il COP29-a ev sahibliyi edəcək ölkəmizdə elan olunan ”Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində həyata keçirilən işlərə də töhfə vermək baxımından xüsusi önəm daşıyır. Qeyd edək ki, ərazisi 4,1 hektar olan park XX əsrin 50-ci illərində salınıb. Ötən müddətdə bu park gəzinti və əyləncə baxımından şəhər sakinləri üçün sevimli məkana çevrilib. 1960-cı illərdə yaxınlıqda metro stansiyasının tikilməsi parka marağı daha da artırıb. Şəhərimizin müasir inkişaf səviyyəsinə və memarlıq üslubuna uyğun olmayan park nadir dizaynda yenidən qurulub. Burada müxtəlif istirahət guşələri, əyləncə qurğuları yaradılıb, o cümlədən uzun müddət yararsız vəziyyətdə olan fəvvarə meydanının yenidən qurulması işləri həyata keçirilib. Parkın ərazisində yeni yaşıllıq sahələri yaradılıb, istismara yararsız, parkın ümumi görkəminə xələl gətirən tikili və qurğular ərazidən götürülüb. Mövcud ictimai-iaşə obyektlərinin fasadları müasir üslubda, parkın yeni layihəsinə uyğun təmir edilib, o cümlədən yeni işıq dirəkləri, eləcə də idman qurğuları və uşaq əyləncə meydançası yaradılıb. Mühəndis-kommunikasiya xətləri əsaslı şəkildə yenilənən park yağış sularının axıdılması üçün nəzərdə tutulan xətlərlə təmin edilib.

### BAKI İNKİŞAFININ YENİ DÖVRÜNDƏ

Bu gün hər sahədə qazandığımız uğurların təməlində Azərbaycan Prezidenti İlham Əliyevin iradəsi, müdrik syasəti dayanır. Azərbaycan həm bölgədə, həm də dünya miqyasında ən sabit və dinamik inkişaf edən ölkələrdən birinə çevrilib. Uğurlu inkişaf yolu keçən Azərbaycanın paytaxtı Bakı da bu gün özünün yeni inkişaf dövrünü yaşayır. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirmişdir: ”Mən şəhərdə gedən abadlıq-quruculuq proseslərinə şəxsən nəzarət edirəm, bir çox layihələrin təşəbbüskarı olmuşam. Bu gün Bakı dünyanın ən gözəl şəhəri kimi inkişaf edir. Bakıya gələn qonaqlar, o cümlədən, mənim həmkarlarım həmişə paytaxtda gedən quruculuq-abadlıq işləri haqqında öz təəssüratlarını bölüşürlər və qeyd edirlər ki, Bakı, doğrudan da, dünyanın ən gözəl şəhərlərindən biridir”. Bakı şəhəri abadlaşır, qurulur, burada infrastruktur layihələri icra edilir.

### SOSİAL-EKOLOJİ HƏDƏFLƏRİN REALLAŞDIRILMASI DAVAMLIDIR

Qeyd edək ki, Gənclik parkı 43 hektar ərazini əhatə edir. Burada 300 minədək ağac və kol var. Həmçinin parkın ərazisində yaşıllıqlar salınıb. Bir sözlə, sakinlər və qonaqlar parkda asudə vaxtlarını səmərəli keçirə bilirlər. İstirahət məkanında həm uşaqlar, həm də böyüklər üçün idman və əyləncə sahələri yaradılıb, attraksion quraşdırılıb. Həmçinin fiziki məhdudiyyətli şəxslər üçün idman və əyləncə sahəsi də yaradılıb. Burada bağlı və açıq futbol meydançaları inşa olunub. Parkda ziyarətçilər üçün piknik məntəqələri də var. Park ərazisinin genişliyi nəzərə alınaraq istirahət edən şəxslərin rahatlığı üçün müvafiq məlumatlandırıcı və istiqamətləndirici lövhələr quraşdırılıb. Ərazinin ən görməli yerlərindən biri də parkda yaradılan göldür.

”Gənclik” parkı paytaxtda aparılan abadlıq-quruculuq işlərinə mühüm töhfə verməklə ölkənin sosial-ekoloji hədəflərinin reallaşdırılmasının davamlı xarakter aldığını bir daha təsdiqləyir.

Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılması üçün dövlət səviyyəsində həyata keçirilən layihələrə birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da xüsusi diqqət yetirir. Fond ölkəmizdə yeni yaşıllıqların salınması və mövcud yaşıllıq sahələrinin qorunması üzrə layihələr icra edir. Bu sahədə Fondun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə ekoloji durumun daha da yaxşılaşdırılması, yeni yaşıllıqların salınması məqsədilə icra olunan layihələrin də mühüm rolu var.

Son illər Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar Azərbaycan dövlətinin inkişafına, onun sosial-iqtisadi bazasının yüksəlməsinə, regionların sosial-iqtisadi inkişafına, insanların rifah halının yüksəldilməsi istiqamətində islahatların həyata keçirilməsinə və s. yönəlmişdir. Bu Sərəncamlar dövlətin təməlinin daha da möhkəmlənməsinə, Azərbaycanın dünyaya inteqrasiya tempinin artmasına töhfələrini verir. Azərbaycanda insanların sağlamlığı, rahatlığı, firavan həyatı da daim diqqətdə saxlanılır.

***Zümrüd BAYRAMOVA***

# Bütöv ölkəmizdə ilk dərs günü



***Bunu illər idi ki, gözləyirdik. Hər il sentyabr ayının 15-də yeni tədris ili başlananda, Qarabağ və Şərqi Zəngəzurdakı qapısı bağlı, şagird üzünə həsrət məktəbləri xatırlayır, dərin bir köks ötürür, o məktəblərin şagirdlərini düşünür, onların doğma yurdlarında məktəbə getmək arzularını göz önünə gətirirdik.***







Düzdür, ölkəmizdə qaçqın və məcburi köçkünlər üçün hərtərəfli şərait yaradılmışdı. Onların övladlarının təhsil alması üçün də eynilə. Lakin övladını öz yurdunda məktəbə göndərmək onların ümdə arzusu idi.

2020-ci ilin 27 sentyabrında başlayıb 10 noyabrında bitən İkinci Vətən müharibəsi soydaşlarımıza yurdlarını qaytardı. 2023-cü ilin 20 sentyabrında keçirilən birgünlük antiterror əməliyyatı isə Azərbaycanı bütövləşdirdi. Bir qarış torpağımız da düşmən əsarəti altında qalmadı. Məhz həmin tarixdən sonra növbəti dərs illərində Qarabağda və Şərqi Zəngəzurda da məktəblərin açılması və bu məktəblərin öz doğma şagirdlərini qarşılayacağı artıq sözsüz oldu.

Budur, artıq iki ildir ki, Qarabağın ayrı-ayrı bölgələrindəki məktəblər yeni dərs ilində öz şagirdlərini qarşılayır. Bu günyeni dərs ilinin ilk günündə isə onlarla yanaşı, Xankəndi, Şuşa və Xocalı məktəbləri də qapılarını şagirdlərin üzünə açıb. Dünən məcburi köçkün kimi yaşayan soydaşlarımız artıq öz ata-baba yurdundadır və övladları da orada yeni dərs ilinə başlayır. Bu, çox qürurvericidir. Dövlətimizin başçısının, milli ordumuzun soydaşlarımıza bəxş etdiyi bu sevinc tək onların deyil, hər bir azərbaycanlının sevinci, qürurudur. 2024/2025-ci tədris ilində ölkə üzrə I siniflərə 132 min 261, məktəbəhazırlıq qruplarına isə 89 min uşaq qəbul olunub. Qədəmləri uğurlu olsun!

## Xankəndi, Şuşa və Xocalıda illər sonra ilk zəng

Yeni dərs ilində Xankəndi, Şuşa və Xocalı məktəblərində ilk zəng çalındı. Bu zəng hər birimiz üçün qürur zəngi, məktəblilər üçün isə yeni dərs ilinin ilk zəngi idi. 32 il sonra çalınan zəng... Bu, tariximizə qızıl hərflərlə yazılan vətənpərvərliyimizin, rəşadət və hünərimizin bəhrəsidir.

Şuşada yeni dərs ili ilə bağlı fotolara baxdıqca insanın ürəyi qürurla dolur. Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov, əməkdar müəllim Asif Cahangirov da Bilik günü münasibətilə müəllim və şagirdləri təbrik edir, onlara uğurlar arzulayırlar.

Şuşa şəhəri 1 nömrəli tam orta məktəbin direktoru Səbinə Gözəlova təhsil ocağı barədə məlumat verir. Bildirir ki, 960 şagird yerlik üçmərtəbəli bina beş blokdan ibarətdir. Burada hər biri 24 nəfərlik 40 sinif otağı, 2 fizika, 2 kimya, 2 biologiya, 2 texnologiya, 2 informatika otağı, STEAM mərkəzi, kitabxana, oxu zalı, gənclərin ibtidai hərbi hazırlığı, rəssamlıq və musiqi kabinetləri, yeməkxana, akt və idman zalları, tibb, müayinə və inzibati heyət üçün iş otaqları var. Məktəb üçün ayrılan ərazidə futbol meydançası və digər zəruri yardımçı binalar da var. Məktəbin şagirdləri ən qabaqcıl standartlara uyğun təhsil alacaqlar.

Bu şərait Xankəndi və Xocalıda da eyni ilədir. Çünki dövlətimiz müharibə bitməmiş quruculuq işlərinin başlanmasına start verməşdi. Ona görə ki, soydaşlarımız tez bir zamanda yurduna qayıtsın, həsrət bitsin. Qısa zaman kəsiyində bu qədər gözəl məktəblərin tikilməsi, maddi-texniki baza ilə təchiz olunması, sözün həqiqi mənasında, qürur duyulası haldır. Uşaqların üzündən yağan sevincin həddi-hüdudu yoxdur. Hiss olunur ki, onlara valideynləri bu torpaqlar, onların uğradığı vəziyyət, geri alınması haqqında müfəssəl məlumat veriblər. Balacalar məlumatlandırılıb, yuxarı sinif şagirdləri isə bunu həm tarixdən, həm də dərsliklərindən bilirlər. Bilməlidirlər ki, qonşumuzu yaxından tanısınlar. Onların xislətinə bələd olsunlar ki, torpaqlarımızı göz bəbəyi kimi qorusunlar.

## İlk dərs günü: şən və kövrək anlar...

Hər il olduğu kimi, bu dərs ilinin ilk günü də şən və kövrək anlar yaşandı. Ötən illərin hər biri onbirinciləri məktəbdən müstəqil həyata yola saldığı kimi, 2-ci sinfi 3, 3-cünü 4, 4-cünü 5 və sair sıra ilə qaldırır. Bu siniflərdə təhsil alan uşaqları da bir yaş böyüdür. Və nəhayət, bu illər hər il birinciləri qarşılayır məktəbdə...

İlk dərs günü... Təqvimin bu günü məktəbin açılmasını 3 ay yarım səbirsizliklə gözləyən məktəblilər üçün sevinc dolu olur. Axı onlar məktəbləri, dost və rəfiqələri, sevimli, doğma müəllimləri üçün darıxırlar. Onları yenidən görmək üçün tətilin günlərini sayırlar.

Hər yeni dərs ili onları bir yaş da böyüdür, həyata baxışlarını dəyişir. Seçimlərini müəyyənləşdirir. Hər biri bir ixtisas seçməklə gələcək planlarını qurur məktəblərdə. Hazırlaşır, mübarizə aparır, arzularına çatmaq üçün mücadilə edirlər. Odur ki, məktəb onların ən sevimli məkanıdır. Yeni dərs ilinin başlanması isə ən sevimli anlarıdır. Bu anlar onları şənləndirir...

## Kövrələn birincilər...

Onlardan fərqli olaraq birincilər üçün məktəb, sinif yoldaşı, müəllim anlayışı hələlik başa düşülən deyil. Elə buna görə də birincilər ilk dərs günü səhəri yuxudan oyanarkən hara gedəcəklərini, orada nə ilə qarşılaşacaqlarını əsla dərk etmirlər. Onları məmnun edən sadəcə valideynlərinin aldığı yeni paltar, ayaqqabı və çantalardır.

Bir az sonra isə bağça yolundan tamamilə fərqli bir yolda olduqlarını görəndə isə dodaqlarını büzüb doluxsunur, kövrəlir, ağlamağa başlayırlar. "Hara gedirik, ay ana?", " Hara gedirik, ay ata?" suallarını yağdırırlar. Onların bu sualları isə hələ də mənasını dərk etmədikləri "məktəbə" sözü ilə cavablandırılır. Bu tanış olmayan söz isə onların daha da kövrəlməsinə səbəb olur.

Məktəbə çatdıqda isə yeni dərs ilinin başlanması təntənəsi bu körpələrə hər gün yollandıqları bağçanın sakitliyindən fərqli göründüyü üçün artıq burada ağlayırlar, həm də uca səslə, eşidiləcək dərəcədə. Hələ ilk zəng vurulandan sonra siniflərə yollanmamaq istəkləri... Ana-atalarının ayaqlarına sarılmaları, sinfə daxil olanda vahimələnmələri, müəllimi görəndə təəccüblənmələri var. Ən əsası isə elə bundan sonra başlayır. Valideynin dərs başladığı üçün sinfi tərk etməsi zamanı onu qoyub getdiyini görən bu körpələrin kollektiv ağlaması... Qızlı-oğlanlı müxtəlif səslər bir-birinə qarışır. Bu kövrək anın isə bir səbəbi var: bizi qoyub hara gedirsiniz?..

Onlar elə bağçaya da ilk dəfə gedəndə bu cür kövrəlmişdilər. Deməli, onlar bir neçə yaş böyüsələr də, hələ də körpədir. Onların ana qucağına, ata məhəbbətinə, müəllim qayğısına ehtiyacı var. Elə bu səbəbdən də ibtidai sinif müəllimlərinin işi çox çətindir. Çünki onlar birincilərə tək elm öyrətmir, həm də qayğıkeş bir ata-ana olurlar. Ağlayan uşaqların göz yaşını silir, təsəllisi olur, köynəyinin qolunu, pencəyinin yaxasını düzəldirlər. Kitab-dəftərlərini çantalarına yığmaqda köməklik edirlər. Hələ qış aylarında üst geyimlərini də müəllimlər geyindirir. Yeri gələndə bantlarını, qalstuklarını da səliqəyə salırlar... Düz dörd il uşaqlar bu qayğı əhatəsində olur. Odur ki, ibtidai təhsili bitirən zaman da müəllimləri üçün kövrəlir, ondan ayrılmaq istəmirlər.

Lakin bu, onların əlində deyil axı. Məktəbdə rolu illər oynayır. Bu illər həftələri aylara, ayları illərə çatdırıb zamanı bir yaş qocaltdıqca, illər də məktəbliləri bir yaş böyüdür. Onları ibtidai sinifdən alıb aparır. Neçə-neçə müəllimlərin əhatəsinə salır. Daha sonra uşaqlar bu müəllimlərə isinişməyə başlayırlar. Yuxarı siniflərə addımladıqca bu müəllimlərdən onların ən yaxın dostu, ən yaxın sirdaşı da olur. Beləliklə, onbirinci sinfə-məktəbin son ilinə qalxırlar. Birinci sinif qədər onbirinci sinif də kövrək anlarla doludur. Lakin bu anlar birbirindən çox fərqli, ayrıdır. Birinci sinifdə anlaşılmayan kövrəklik, onbirinci sinifdə dərk edilən kövrəklik... Məktəbdən, onbirillik sinif yoldaşlarından, müəllimlərdən ayrılmağın kövrəkliyi...

Lakin həyat davam edir, deyək. Həyat davam etdikcə də illər bir-birini qovalayır. Odur ki, hələ məktəblərimizin divarları arasından çox birincilər və onbirincilər keçəcək. Hər birinin qəlbində min bir xatirə ilə...

## Həm oxşar, həm fərqli dərs ili...

Bu il də ötən illərdən biri olsa da, fərqli cəhəti bütöv ölkəmizdə yeni dərs ilinin başlanmasıdır. Bu şən və kövrək anlar ölkəmizin hər bir bölgəsində başlanan yeni dərs ilində məktəbə yollananlar üçündür. Elə yanından ötüb işə gəldiyim məktəbin qarşısında eynilə bu yazıda olan mənzərə var idi. Yuxarı sinif şagirdləri bir-biri ilə öpüşüb görüşürdü, salamlaşırdı, söhbətləşirdi.... Birincilər isə çaşqınlıq içərisində onları seyr edirdi.

Yolboyu onların bir azdan ilk zəngin səsi ilə sinif otaqlarına daxil olmalarını və hər bir valideynin müşahidəçisi olduğu halları yaşayacaqlarını xəyal edirdim. Çünki biz də axı vaxtilə övladımızın əlindən tutub məktəbə aparanda o mənzərələrin şahidi olmuşuq...

Lakin tezliklə birincilərin bu kövrəkliyi, bir qədər də ərköyünlüyü geridə qalır. Onlar məktəbə də, müəllimlərinə də bağlanır. Odur ki, yeni dərs iliniz uğurlu olsun, əziz məktəblilər... Qoy illər ötsün, keçsin ki, birincilərin kövrəkliyi geridə qalsın, onbirincilərin arzusu çin olsun!

Bütün məktəblilərdən, eləcə də azad Qarabağ və Şərqi Zəngəzur məktəblilərindən uğurlu nəticələr gözləyirik. Qoy onların səsini ölkəmizin ali təhsil ocaqlarından, Qarabağ universitetindən eşidək.

***Mətanət Məmmədova***

# “Məsuliyyət hissinin uşaq yaşlarından formalaşdırılması çox yaxşıdır”



PSİXOLOQ İZAH ETDİ

“Hər yerə vaxtından tez gedən insanlar bir neçə əlamətlərə görə başqa insanlardan fərqlənirlər”. Bu sözləri SİA-ya açıqlamasında uşaq, yeniyetmə və yetkin psixoloqu Nigar Ağabağırova deyib. O bildirib ki, onlara həyəcan, təşviş, eyni zamanda mükəmməlliyyətçilik kimi xüsusiyyətlər aid ola bilər: ”Bu insanlar bir yerə vaxtından tez gedirlərsə, demək, onlar gələcəyi çox düşünən insanlardır. Əslində hər hansı yerə vaxtında çatmağımız yaxşıdır. Bu bizim özümüzə, sonra da gedəcəyimiz yerə olan hörmətimizdən, məsuliyyətimizdən xəbər verir. Amma həddindən artıq tez getmək bizim gələcəyi çox düşünən, narahat insan olduğumuzu göstərir.

Məsuliyyət hissinin uşaq yaşlarından formalaşdırılması çox yaxşıdır. Uşaqlara gecədən məktəb çantasını yağdırmaq, valideynin məktəb çantasına müdaxilə etməməsi, içərisinə nələri qoymağa uşağın qərar verməsi uşağı daha da məsuliyyətli edir. Arxayın olmur ki, ”anam çantamı hazırlayacaq”. Bilir ki, bunu özü etməlidir. Bu, onu daha məsuliyyətli, diqqətli etmiş olur. Bu kimi uşağın yerinə işləməmək, uşağı öz işlərini görməyə yönəltmək vəzifələrimizdəndir”.



”Gecikən insanlar hər yerə vaxtından tez gedən insanlardan daha çoxdurlar. Bunun üçün, təbii ki, iş yerlərində bir neçə tədbirlər görülür. Məsələn, barmaq izi, kart sistemidir ki, rəhbərlik işçinin gəlib-gəlməyəcəyindən xəbərdar olmuş olur. Elə yerlər də var ki, orada bu cür sistemlər yoxdur. Gecikən insanlarda çox zaman diqqət yayınması ola bilər. Eyni zamanda vaxtı doğru bölə bilməmək də hər yerə gecikən insanların xarakterik xüsusiyyətlərindən biridir. Bunun da kökü yenə də erkən uşaqlıq dövrünə gedib çıxır. Valideynin övladına məsuliyyət verməməsi, onun yerinə işlərini görməsi uşağın görməli olduğu işləri valideyn etməsi, uşağın məsuliyyətsiz biri olaraq böyüməsinə, diqqəti inkişaf etməməsinə, vaxtı da düzgün bölə bilməməsinə səbəb olacaq. Əgər uşaqda bu problemlər varsa, valideyn ”sən düzəlməyəcəksən”, ”həmişə belə qalacaqsan”, ”vaxtında harasa gedə bilməyəcəksən” bu kimi sözlərlə uşağa etiket yapışdırarsa, uşaq inanacaq. Valideyn bizim inandığımız şəxsdir. Uşaq düşünəcək ki, onu tanıyan anası belə deyirsə, demək, düzəlməyəcək. Uşaq özünü düzəltməyə də çalışmayacaq. Belə olan halda valideyn qayda qoymasına baxmayaraq nəticə ala bilməzsə, mütəxəssisə müraciət edərlərsə, bu məsuliyyəti yarada bilərlər” - deyə o, əlavə edib.

**Söylü Ağazadə**



# “Nar” YAŞAT Fondu ilə birgə “Bilik Günü” münasibətilə şəhid övladlarını təbrik etdi

“Nar” YAŞAT Fondu ilə birgə bütün ölkə ərazisində yeni dərs ilinin ilk günü münasibətilə qəhrəman şəhidlərimizin övladlarını təbrik edib və onlara zəruri dərs ləvazimatları hədiyyə edib. Bu təşəbbüslə “Nar” şəhidlərimizin əziz xatirəsini yaşadaraq, onların övladlarının yeni tədris ilinə sevinc və ruh yüksəkliyi ilə başlamasına dəstək olub.

“Nar”ın dəstəyi ilə təşkil edilən layihə çərçivəsində792 şəhidin 1-11-ci siniflərdə təhsil alan 1365məktəbli övladına dərs ləvazimatlarından ibarət hədiyyə qutuları xüsusi qürurla təqdim edilib. “Nar”ın İctimaiyyətlə əlaqələr və korporativ ünsiyyət departamentinin direktoru Hökümə Kərimova məktəbliləri təbrik edib və bildirib: “Məqsədimiz qürur mənbəyimiz olan şəhidlərimizin övladlarının gələcəyə ümidlə baxaraq dərslərinə daha böyük həvəslə və tam hazırlıqlı başlamasını təmin etməkdir. Bu yeni tədris ilində onlara böyük uğurlar arzulayırıq və bilirik ki, hər biri qarşıda çoxsaylı nailiyyətlər qazanacaq”.

“Nar” hər zaman şəhid ailələrinə və onların övladlarına dəstək göstərməyi öz əsas dəyərlərindən biri olaraq qəbul edir.Bu layihə “Nar”ın şəhid ailələrinə qayğı göstərərək vətən qarşısında öz borcunu yerinə yetirmək istiqamətində atdığı növbəti addımdır. Operatorun həyata keçirdiyi bütünsosial layihələr haqqında ətraflı məlumatı nar.az/layihələr səhifəsindən əldə etmək olar.

“Nar” hal-hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərməkdədir. “Nar” son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.



# COP29 - nə gözləyirik və nə qazanacağıq?

MƏTLƏB
Metlebsalahov@mail.ru

***Bir neçə aydan sonra Azərbaycan daha bir qlobal beynəlxalq tədbirə ev sahibliyi edəcək. COP29 ətraf mühit və ekoloji problemlərin müzakirə olunduğu ali platformadır. Amma bu platformanın Azərbaycana qazandıracağı təkcə müzakirə masaları olmayacaq. Yeni iqtisadi tərəfdaşlar, alternativ enerji mənbələri və texnologiyaları, enerji diplomatiyası üçün yeni imkanlar – bunların hamısı COP29-dan gözləntilərimizdir.***

Bəli, COP29-a ev sahibliyi etmək Azərbaycan üçün geniş imkanlar yaradacaq. Daima iqtisadi və siyasi mənada olduqca vacib platforma, əlaqə mərkəzi kimi sayılan Azərbaycan, son illərdə ən önəmli iqtisadi layihələr üçün açar rolunu oynayıb. Məlumdur ki, güclü enerji resurslarına, neft və qaz ehtiyatlarına sahib olan Azərbaycan bu gün Avropa üçün də ən önəmli enerji tərəfdaşı və enerji transformatorudur. Bu gün beynəlxalq səviyyədə Bakı nefti və qazı ən güclü iqtisadi silah kimi gündəmdədir. Hər kəs, - istər avropalısı olsun, istər bir başqa qitə - Azərbaycanın enerji tərəfdaşı olmaq üçün can atır. Böyük enerji resurslarına sahib olan bu odlar yurdu ölkəsi həm də əməkdaşlıq və yeni imkanlar üçün cazibə mərkəzidir. Bu baxımdan, COP29-un ölkəmizdə keçirilməsi Azərbaycanın iqlim dəyişiklikləri ilə mübarizədə ardıcıl və qətiyyətli mövqeyini, həmçinin, yaşıl enerjiyə keçidlə bağlı göstərilən səyləri ifadə etməklə yanaşı, həm də həyatın bütün sahələrində yüksək standartların təşviq və tətbiq edilməsinə öz töhfəsini verəcək.

Məlum olduğu kimi, müasir dünyada bir-biri ilə zəncirvari əlaqədə olmayan, bir-birini tamamlamayan və həmçinin, qarşılıqlı əlaqədə olmayan heç bir istiqamət yoxdur. Əgər iqlim dəyişiklikləri iqtisadiyyatdan, maliyyə sabitliyindən başlamış fundamental insan hüquqlarının kompleks şəkildə qorunmasına öz təsirini göstərirsə, o zaman bütün bu proseslərinin ana xəttini təşkil edən siyasi aspektləri də əhatə edir. Məhz bu baxımdan, COP29-un ölkəmizdə keçirilməsinin və Azərbaycanın bütün bəşəriyyət həyati önəm kəsb edən mövzuların müzakirə edildiyi bir platformaya çevrilməsinin həm də böyük siyasi əhəmiyyəti var.

Bundan başqa, iki həftəlik tədbirdə turistlərin Azərbaycan iqtisadiyyatına birbaşa təsiri pul xərcləmələri ilə bağlıdır. Xüsusən də, bu, Abşeron yarımadasındakı turizm kompleksləri üçün ciddi surətdə qazanc əldə etmək imkanıdır. Yaşıl sektor, xidmət sektorları üçün iki həftə ərzində turizm partlayışı yaşanacaq.

Daha bir vacib məqama diqqət edək. Ölkəmiz bərpaolunan və alternativ enerji ilə bağlı mühüm layihələr reallaşdırır və bu barədə mühüm planlarımız var. Statistik göstəricilər də Azərbaycanın niyyətini ortaya qoyur. Ölkəmiz 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarını 35% azaldılmasını hədəfləyir. 2030-cu ildən sonra isə daha iddialı hədəf müəyyən edilib ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarını 40% azaldılmasından ibarətdir. COP29 tədbirinə ev sahibliyi etmək potensial olaraq investisiyaları cəlb edə və uzunmüddətli perspektivdə turizmi artıra bilər. COP-a ev sahibliyi etmək hər bir ölkə üçün böyük maliyyə öhdəliyi ola bilər, lakin o, həm də beynəlxalq əməkdaşlıq, investisiya və iqlim liderliyini nümayiş etdirmək baxımından potensial faydalar gətirə bilər. Düşünürəm ki, bu beynəlxalq əhəmiyyətli tədbir ölkəmizə mühüm dividendlər qazandıracaq.

***Azərbaycanda neftdən sonra ən potensiallı sahə aqrar sektordur. Aqrar sektorda əsas vacib sahə isə, ilk növbədə, ərzaq istehsalı ilə bağlıdır. Xüsusən də, taxılçılıq, heyvandarlıq, meyvə-tərəvəzçilik, balıqçılıq və s. kənd təsərrüfatı sahələrinə daha böyük dövlət dəstəyinin göstərilməsi vacibdir. Bu, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından çox əhəmiyyətlidir. Üstəlik, bu sahədən yaxşı gəlir də əldə etmək olar.***







# Ərzaq təhlükəsizliyini bu yolla təmin etmək olar



***Hazırda ölkəmizin əsas tələbat məhsullarına olan ehtiyacının təxminən yarısı idxal hesabına ödənilir ki, bu da riskli göstəricidir. Beynəlxalq elmi mərkəzlərin proqnozlarına görə, qarşıdan qlobal quraqlıq, aclıq və qıtlıq dövrü gəlir. Dünya iqtisadi mərkəzləri, sosial təşkilatlar bu haqda həyəcan təbili çalır. Son illərdə bütün dünyada ərzağın qiymətləri artır. Bəzi ölkələr ağır vəziyyətə düşür. Bu faktlar bir daha aqrar sektorun əhəmiyyətini və onun sürətli inkişafı üçün dövlət dəstəyinin daha da artırılmasının vacibliyini göstərir.***

**TƏKLİF**

Son illərdə dövlətin bu sahəyə böyük investisiyalar qoyduğu, böyük həcmdə subsidiyalar, kreditlər ayırdığı, müxtəlif dövlət proqramları vasitəsilə güzəştlər tətbiq etdiyi müşahidə olunur. Lakin hələlik, əldə olunan nəticəni qənaətbəxş adlandırmaq olmaz. Faktiki olaraq, əhalinin ərzağa olan tələbatının təxminən yarısı idxal hesabına ödənilir.

Ərzaq təhlükəsizliyi üzrə xüsusi proqram həyata keçirən ölkələrdə xarici amillərin mümkün təsirlərindən maksimal sığortalanma mümkün olur. Belə ölkələrdə əsas tələbat mallarının çox böyük hissəsi ölkənin özündə istehsal olunur və bu da xarici amillərin təsirlərini minimuma endirir.

Məsələn, Rusiya, ABŞ və Hindistanda, həmçinin, əksər Avropa ölkələrində dövlət tərəfindən kənd təsərrüfatına güclü dotasiya ayrılır, əsas ərzaq məhsullarının istehsalı üçün stimullaşdırıcı tədbirlər görülür, fermerlərə güzəştlər edilir. Belə ölkələrdə dövlət tərəfindən fermerin məhsulunun bazar qiymətinə alınacağı haqda qabaqcadan müqavilə bağlanır.

Buraya kəndlinin öz məhsulunu sərbəst və maneəsiz şəkildə bazara çıxarma imkanlarını, möhtəkirliyin aradan qaldırılmasını və anti-inhisar tədbirlərini də əlavə etsək, belə ölkələrdə xarici amillərin təsiri ilə ərzaq qıtlığı və bahalaşmanın yaranması üçün heç bir səbəbin olmadığı aydın olar.

Nəzərə alsaq ki, Azərbaycan özünü kənd təsərrüfatı malları tam təmin etmək gücündədir və digər ölkələrlə müqayisədə bizim ölkənin daha yaxşı iqlim, həmçinin münbit torpaq imkanları var, o zaman aydın olar ki, mövcud potensialdan düzgün və səmərəli istifadə etməklə buna nail olmaq olar.

Bu məqsədlə hökumət tərəfindən məsələyə kompleks yanaşma ilə strateji aqrar proqramlar hazırlanıb yerinə yetirilsə daha məqsədəuyğun olardı. Kənd Təsərrüfatı Nazirliyi və Su Ehtiyatları Agentliyi su mənbələrinin səmərəli istifadəsi, su ehtiyatlarının artırılması, şoran torpaqların yaralı hala gətirilməsi kimi tədbirləri həyata keçirməklə aqrar sektorun inkişafına böyük töhfə verə bilərlər.

Qəribəsi odur ki, ölkə özünü meyvə-tərəvəzlə artıqlaması ilə təmin edə biləcək gücdədir, lakin bazarlar bu məhsulların xarici analoqları- genetik modifikasiya olunmuş məhsullarla doldurulub. Belə məhsullar yerli məhsullardan xeyli ucuz satılır. Yerli meyvə-tərəvəz bazarlarda baha satılsa da, bundan kəndli yox, alverçilər qazanır.

Kəndli məhsulunu min bir əziyyətlə əkib-biçəndən sonra onu ucuz qiymətə alverçilərə verməyə məcbur olur. Çünki hərdən təşkil olunan və az sayda fermerin iştirak etdiyi yarmarkaları nəzərə almasaq, onların öz məhsulunu sərbəst satması üçün lazımi şərait yaradılmayıb. Bazarlar isə alverçilər tərəfindən zəbt olunub və məhsul istehsal edən kəndlilər oraya giriş imkanları yoxdur. Bu səbəbdən də, hər hansı bir məhsulu kəndlidən sahədə 20 qəpiyə alan möhtəkirlər onu bazar dükanda ən azı 1 manata satırlar.

Belədə, iki tərəf uduzur- istehsalçılar və istehlakçılar. Bir tərəf də udur ki, bunlar da dəllallar, yəni möhtəkirlərdir. Bu prosesdən qazanan daha bir tərəf isə xaricdən ərzaq idxal edənlərdir.

Ona görə də təklif edirik ki, KTN tərəfindən ölkənin bütün şəhərlərində daimi fəlaiyyət göstərən və yalnız öz məhsulunu satan kəndlilərin buraxıldığı yarmarkalar təşkil edilsin. Bakı şəhərində azı 5-6, Gəncə və Suymqayıt kimi iri şəhərlərdə 2, digər şəhərlərdə 1 daimi yarmarka təşkil edilsə, rayonlardan öz nəhsulunu satmağa gətirənlər pulsuz olara qoraya buraxılsa, o zaman ərzaq bazarında ucuzluq yaranacaq. Öz məhsulunu rahat, manesəiz sata bilmiş və gəlir əldə etmiş təsərrüfat sahibləri növbəti illərdə daha çox məhsul istehsal etməyə çalışacaqlar və nəticədə ölkə bazarında ucuzluq və bolluq yaranacaq.

Bununla paralel olaraq, aqrar sektorda suvarma, gübrələmə, növbəli əkin sistemi, aqrotexniki qulluq, kənd təsərrüfatı texnikaları ilə təchizat işləri də qaydasına salınsa böyük nailiyyətlər əldə etmək olar.

Kənd təsərrüfatı məhsulları həm də yüngül və yeyinti sənayesi deməkdir. Bölgələrdə çox sayda kiçik və orta emal müəssisələri yaradılsa biz məhsulumuzu xaricə xammal kimi ucuz satmarıq, hazır məhsul kimi daha baha sata bilərik və buradan həm istehsalçılar, həm də dövlət xeyli gəlir əldə edə bilər. Beləliklə, nəhəng aqrar-sənaye zənciri formalaşa bilər ki, ölkəmiz nəinki özünü əsas tələbat məhsuları ilə təmin edə bilər, hətta xeyli həcmdə hazır məhsul ixrac edə bilər.

Dövlət başçısının aqrar sektorun inkişaf etdirilməsi ilə bağlı hökumətin üzərinə qoyduğu vəzifələr düzgün yerinə yetirilsə, həm neftdən sonrakı dövr üçün böyük və gəlirli istehsal sahələri yaradılmış olar, həm də əhalimiz xaricdən gətirilən mənşəyi dəqiq aydın olmayan keyfiyyətsiz ərzaq məhsullarından azad olub, öz torpağımızın təbii və təmiz məhsulu ilə qidalanmış olar. Beləliklə, ərzaq təhlükəsizliyimiz tam təmin olunmuş olar.

***Elçin Bayramlı***

*“Şuşa, Xankəndi və Xocalıda tədrisin bərpası Azərbaycanın təhsil sistemi və milli tarixində böyük bir mərhələ olaraq yadda qalacaq. Qarabağın Azərbaycanın nəzarətinə keçməsi və bu bölgələrdə təhsil sisteminin yenidən qurulması həm tarixi, həm də strateji əhəmiyyət daşıyır.*

# “Şuşa, Xankəndi və Xocalıda təhsilin bərpası dönüş nöqtəsidir”






Şuşa, Xankəndi və Xocalıda tədrisin bərpa olunması Azərbaycan üçün böyük tarixi əhəmiyyət kəsb edən bir hadisədir. Bu bölgələr Qarabağ münaqişəsi dövründə işğala məruz qalmış və nəticədə təhsil infrastrukturu dağıdılmışdır. Lakin 2020-ci ildə



**TƏHSİL EKSPERTİNDƏN AÇIQLAMA**





İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan öz torpaqlarını işğaldan azad etməklə bu ərazilərdə hər sahədə, o cümlədən təhsil sahəsində geniş bərpa işlərinə başladı”. Bu sözləri SİA-ya açıqlamasında təhsil üzrə ekspert Kamran Əsədov deyib. O bildirib ki, təhsilin yenidən qurulması strateji əhəmiyyət daşıyır, çünki bu, sadəcə, məktəb və universitetlərin açılması demək deyil, həm də gələcək nəsillərin yetişdirilməsi, milli kimliyin qorunması və ölkənin iqtisadi, sosial inkişafına dəstək deməkdir: “Qarabağda təhsil Şuşa və Qarabağın təhsil tarixi Şuşa tarixi boyunca Azərbaycanın mədəni və intellektual mərkəzlərindən biri olub. XIX əsrdən etibarən Şuşada bir çox məktəblər, mədəni ocaqlar fəaliyyət göstərirdi. Məşhur ziyalılar, alimlər və şairlər bu şəhərdə təhsil almışlar. Sovet dövründə Qarabağ bölgəsində təhsil sistemi dövlətin nəzarətində idi və Azərbaycan dilində tədris verən məktəblər fəaliyyət göstərirdi. Lakin münaqişə illərində Qarabağda Azərbaycan dilində təhsil demək olar ki, tamamilə aradan qaldırıldı və təhsil infrastrukturu dağıdıldı.

1990-cı illərdə təhsil və münaqişənin təsiriXankəndi və Xocalıda təhsil müəssisələri münaqişə illərində tamamilə fəaliyyətini dayandırmışdı. Xocalı faciəsi, erməni işğalı nəticəsində bu şəhərlərdə yaşayan azərbaycanlılar məcburi köçkün vəziyyətinə düşdü. Təhsil müəssisələri dağıldı, minlərlə uşaq təhsilsiz qaldı və bu, Azərbaycan təhsil sistemi üçün ciddi itki idi. Eyni zamanda, bu bölgədə milli və tarixi təhsil ənənələrinin itirilməsi təhlükəsi də yaranmışdı.

## Yeni Tədris İlinin Xüsusiyyətləri və Gözləntilər

**1. İnfrastrukturun bərpası və modern təhsil texnologiyalarının tətbiqi:**

2020-ci ildən sonra Qarabağda, o cümlədən Şuşa, Xankəndi və Xocalıda genişmiqyaslı yenidənqurma işləri başlandı. Prezident İlham Əliyevin rəhbərliyi altında bu ərazilərdə müasir təhsil müəssisələrinin inşası sürətlə davam edir. Bu tədris müəssisələri ən müasir standartlara uyğun olacaq, texnoloji imkanlar, rəqəmsal resurslar, interaktiv lövhələr, yüksək sürətli internet və laboratoriyalar təhsil prosesinin ayrılmaz hissəsi olacaq. Rəqəmsal tədris platformalarının tətbiqi ilə Qarabağdakı təhsil müəssisələri dünyanın qabaqcıl təhsil ocaqları ilə rəqabət apara biləcək.

**2. Milli təhsilin bərpası və mədəniyyətin qorunması:**

Şuşa və Qarabağda milli təhsil dəyərlərinin bərpası, Azərbaycanın mədəni kimliyinin qorunması əsas prioritetlərdən biridir. Milli tarix, mədəniyyət və ənənələrin öyrədilməsi bu bölgələrdə tədrisin əsas istiqamətlərindən biri olacaq. Qarabağın zəngin mədəni irsi, Şuşanın Azərbaycanın musiqi və poeziya mərkəzi kimi rolu gənc nəsillərin təhsil proqramlarında öz əksini tapacaq. Bu, yalnızca tarix dərslərində deyil, həm də incəsənət, musiqi və ədəbiyyat dərslərində özünü göstərəcək.

**3. Sosial inteqrasiya və əhalinin yenidən yerləşdirilməsi:**

İşğaldan azad olunmuş ərazilərə əhalinin yenidən qayıtması və sosial inteqrasiyanın təmin edilməsi təhsilin bərpası ilə birbaşa əlaqədardır. Qarabağ bölgəsində yaşayan bütün əhali qrupları üçün bərabər təhsil imkanlarının yaradılması vacibdir. Azərbaycan hökuməti bu ərazilərdə yaşayan bütün millətlər üçün birgə təhsil mühiti yaratmaq üçün çalışır, bu da bölgədə sosial inteqrasiyaya və sabitliyə töhfə verəcəkdir.

**4. Beynəlxalq təhsil standartlarının tətbiqi:**

Azərbaycanda təhsilin beynəlxalq standartlara uyğunlaşdırılması islahatları bu bölgələrdə də həyata keçiriləcək. Şuşa və Xankəndi şəhərlərində müasir təhsil müəssisələri beynəlxalq akkreditasiyadan keçə bilər, bu isə təhsilin keyfiyyətini artıracaq və bölgəni təhsil turizminin mərkəzinə çevirə bilər. Müasir təhsil proqramları, xarici dillərin öyrədilməsi və beynəlxalq təcrübələrdən yararlanmaq burada tədrisin səviyyəsini yüksəldəcək.

**5. Rəqəmsal və distant təhsil imkanları:**

İşğaldan azad olunmuş ərazilərdə yaşayan əhali üçün distant təhsil imkanlarının yaradılması xüsusilə vacib olacaq. Qarabağda yaşayacaq gənclərin dünyanın istənilən yerində ali təhsil ala bilməsi üçün rəqəmsal təhsil platformalarının geniş tətbiqi planlaşdırılır. Bu, Qarabağ regionunun təhsil potensialını artıracaq və dünyaya inteqrasiyasını təmin edəcək.

## Perspektivlər və Uğurlu Gözləntilər

**1. İqtisadi inkişaf və təhsil**

Bölgədə təhsil infrastrukturunun yenidən qurulması Qarabağın iqtisadi inkişafına da təkan verəcək. Təhsil müəssisələri ətrafında yeni iş yerlərinin açılması, infrastrukturun inkişafı və təhsilli işçi qüvvəsinin yetişməsi regionun iqtisadi gücünü artıracaq. Şuşa və digər azad olunmuş ərazilərdə turizm, kənd təsərrüfatı və texnoloji startapların inkişafı üçün təhsilin gücləndirilməsi vacibdir.

**2. Yeni nəsil liderlərin yetişdirilməsi**

Qarabağda təhsilin bərpası milli liderlik keyfiyyətlərinə sahib olan, vətənpərvər, elmə və texnologiyaya açıq gənclərin yetişdirilməsi üçün vacibdir. Burada yaradılacaq təhsil müəssisələri gələcəkdə Azərbaycanın siyasi, iqtisadi və sosial həyatına mühüm töhfə verəcək liderlərin yetişdirilməsinə xidmət edəcək.

**3. Elm və innovasiya mərkəzlərinin yaradılması**

Qarabağda təhsilin inkişafı bölgəni elm və innovasiya mərkəzinə çevirmək potensialına malikdir. Prezident İlham Əliyevin tapşırıqları əsasında burada texnoloji və elmi mərkəzlərin yaradılması planlaşdırılır. Bu, həm təhsil, həm də iqtisadi sahədə regionun inkişafına böyük töhfə verəcək.

## Prezident İlham Əliyevin Şuşada Təhsil Sahəsində Gördüyü İşlər

Prezident İlham Əliyev Şuşada və digər azad edilmiş ərazilərdə təhsilin bərpası üçün geniş layihələr həyata keçirir. Şuşa şəhərində müasir təhsil müəssisələrinin tikilməsi, məktəblərin və universitetlərin yenidən açılması onun əsas prioritetlərindən biridir. Şuşa şəhəri, Azərbaycanın mədəniyyət və təhsil mərkəzlərindən birinə çevriləcək. Bu bölgədə təhsilin yüksək səviyyədə qurulması üçün həm yerli, həm də beynəlxalq tərəfdaşlarla əməkdaşlıq genişlənir.

## Dünya Təcrübəsi və Müqayisələr

Dünyada münaqişədən sonra təhsil sisteminin yenidən qurulması ilə bağlı bir çox uğurlu təcrübələr mövcuddur. Məsələn:

Almaniya və Yaponiya İkinci Dünya Müharibəsindən sonra təhsilin yenidən qurulması ilə iqtisadi və sosial inkişaflarına təkan verdilər. Bosniya və Ruanda kimi ölkələr müharibədən sonra təhsili bərpa edərək milli barışığın təmin edilməsi və sosial sabitliyin qurulmasında mühüm addımlar atdılar.

Azərbaycan da bu təcrübələrdən yararlanaraq, işğaldan azad edilmiş ərazilərdə təhsil sistemini ən müasir texnologiyalarla qurmaq və dünyaya inteqrasiya etmək niyyətindədir.

Beləliklə, Şuşa, Xankəndi və Xocalıda təhsilin bərpası Azərbaycan üçün tarixi bir dönüş nöqtəsidir. Bu, yalnız təhsil infrastrukturunun yenidən qurulması demək deyil, həm də milli dəyərlərin bərpası, mədəniyyətin qorunması və bölgənin iqtisadi və sosial inkişafının təməlidir”.

***Səbinə Hüseynli***

# Frank Şveber səlib yürüşlərinin ideoloqu olmağa can atır

***Qərbin və ABŞ-ın qaranlıq dairələri ciddi narahatlıq keçirir. Nədən ki, Ermənistanın çöküşü fonunda Azərbaycan regionun hərbi, siyasi, diplomatik cəhətdən qüdrətli dövlətinə çevrilib. Ən önəmlisi isə Azərbaycan regionda sabitlik adası olaraq tanınır və qəbul edilir. Faktlar, araşdırmalar, gedən proseslərdə təsdiq edir ki, bölgənin yeganə sabit, təhlükəsiz dövləti Azərbaycandır. Digər region dövlətlərində isə vətəndaş qarşıdurması və ya dövlətlərarası müharibələr baş verir.***



Gözlənildiyi kimi böyük gücləri Azərbaycanın sülh və əmin-amanlıq içərisində, həm də qalib dövlət olaraq yaşamasından ciddi narahatlıq keçirirlər. Ona görə də, üzdə bir-birinə rəqib olan ölkələr və ya qurumlar Azərbaycana qarşı qərəzli fəaliyyətdə eyni maraqları bölüşür və fəaliyyət göstərirlər. Hətta Rusiya-Ukrayna müharibəsinə görə ABŞ və Qərb rəsmi Moskvaya qarşı birləşsələr də Azərbaycanın uğurlarına kölgə salmaq, sabitliyinə xələl gətirmək üçün birgə hərəkət edirlər. Üzdə Rusiya Ermənistanla münaqişəli vəziyyətdə olduğu görüntüsü yaratmağa çalışsa da, əməli fəaliyyətdə Paşinyanın maraqlarına hesablanan addımlar atır. Xüsusilə Qərb, ABŞ və Rusiya ardıcıl olaraq Ermənistanı silahla təchiz edirlər. Bu faktlar Rusiya və Qərbin riyakarlığıdır. Rusiyanın Ermənistana silahların verilməsi, Azərbaycana isə Ukrayna bəhanəsi ilə verməməsi təəccüb doğurmaya bilməz. Bu isə onu deməyə əsas verir ki, bu qüvvələrin regionda sülhün və təhlükəsizliyin bərqərar olmasından narahatdırlar. Çalışırlar ki, Ermənistanın müxtəlif zir-zibildən ibarət olan silahla təmin etməklə bölgədə növbəti münaqişə yaratsınlar. Necə ki, artıq tarixin arxivinə göndərilən ATƏT-in Minsk Qrupunun mövcudluğu dönəmində Qərb və Rusiya ermənilərin maraqlarını qoruyurdular, elə indi də həmin siyasət davam edir.

### Tarixdə olduğu kimi xaç yürüşləri bu dəfə Avropanı məhv edə bilər

Qərbin anormal siyasət bir daha onu deməyə əsas verir ki, xristian dünyasının türk-müsəlman ölkələrinə olan tarixi düşmənçiliyi min illərdir ki, dəyişməz olaraq qalır. Belə iyrənc fəaliyyətin adı isə "səlib yürüş"lərdir. Məlum faktdır ki, 1096-1099-cu illər başlayan səlib yürüşləri 1270-ci ilə qədər 8 uğursuz yürüşləri ilə davam etmişdir. Xristianlığın yayılması və yeni torpaqlar (eyni siyasət bu gün də təkrar olunur - İ.Ə.) işğal etmək xəyalı ilə yürüşlərə başlayan səlibçilər sonda məhv edilmiş, ordularından, bəzi hallarda isə dövlətlərindən məhrum olmuşlar. Səlib yürüşünün başlaması zamanı yaşanan eyforiyanın şahidi olmuş abbat Nojanlı Qvibert vəziyyəti aşağıdakı sözlərlə təsvir edir. "Klermon şurası bitdikdən sonra Fransanın bütün əyalətlərində onun haqqında böyük xəbər yayıldı. Papanın sözləri haqqında eşidən hamı, öz qonşularını və qohumlarını xəbərdar etməyə yollanırdı və onları Allahın yoluna daxil olmağa səfərə çıxmağa çağırırdı ......Artıq qrafların istəkləri aşıb-daşırdı. Cəngavərlər yalnız yürüş haqda düşünürdü. O zaman kasıblar da bütün əmlaklarını qiymətsiz, demək olar ki, havayı satmağa başladılar, dünən heç hara getmək istəməyənlər, artıq bir gündən sonra digərləri ilə bərabər yola düşürdü.... ....Müharibə və səfər fikri ilə alışıb yanan qocalar, uşaqlar haqda nə demək olar. Hamı müharibəni salamlayır, hamı müqəddəslik arzusundadır". Nojanlı Qvibert də qeyd etdiyi kimi, Papanın çağırışına və imperiya cəlladlarının şirnikləndirici vədlərinə aldanan yüz minlərlə bədbəxt xristian Asiyaya yürüşlərə çıxmışlar. Lakin bir daha yurdlarına qayıtmamışlar. Çünki onlar böyük Türk-müsəlman fatehlərinin ordularının qılıncından keçirilərək məhv edilmişlər. Görünür, tarixin ağır, acı nəticələri xristian dünyası üçün dərs olmayıb. Bu gün də başqa formada xaç yürüşlərini təşkil etməklə türk-müsəlman ölkələrinə zərər vurmağa ümid edirlər.

### Nasizmin bərpa edilməsi təsadüfi hesab edilə bilməz

Səlibçilərin fəallaşması fonunda bəzi məkrli dairələrin əsas hədəfləri daha çox güclü, qüdrətli, sabit müsəlman dövlətləridir. Xüsusilə də, yuxarıda qeyd etdiyim kimi, səlibçilər regionun aparıcı lider dövləti olan Azərbaycana qarşı qərəz nümayiş etdirirlər. Məkrli dairələr gah Azərbaycan haqqında yanlış rəy formalaşdırmağa çalışır, gah ittihamlar irəli sürür, gah da haqqında şər və böhtanlar tirajlayırlar. Almaniyada nasist partiyasının əsas təşkilatçılarından olan Bundenstaqın deputatı Frank Şveber isə bir qədər də dərinə gedərək Azərbaycanla bağlı əxlaqına və mənəviyyatına xas olan ifadələr səsləndirir. Düzdür, onu Azərbaycan qarşı ittihamçı rolunda çıxış etməyə səlibçilərin və nasistlərin dərnəyi məcbur edir, ancaq bu məsələdə erməni lobbisinin də rolu olduğu şübhəsizdir. Yəni, birincilərin tapşırıqlarını əqidəsinə uyğun yerinə yetirirsə, ikincilərin tələbini maddi maraqlarının təmin olunması üçün icra edir. Bu da onu deməyə əsas verir ki, F.Şveber o qədər də axmaq və kütbeyin deyil ki, mənafeyinə uyğun olmadığı halda erməni lobbisinin tələbini yerinə yetirsin. Məhz maraqları təmin olduğu üçün Azərbaycanın torpaqlarını işğaldan azad edilməsini, eləcə də Qarabağda qazandığı böyük Zəfərini həzm edə bilmir və hər cür sərsəm iddiaları ilə ermənilərə yarınmağa çalışır. Deyir ki, Azərbaycan guya Qarabağdan erməni sakinlərini zorla çıxarıb. Oxuculardan dönə-dönə üzr istəyirəm. İmkan ola və onunla üzbəüz dayanıb, deyəsən, "yalançının ...". Sonra da əlavə edəsən ki, ay səni filan-filan olmuş şudə, əlində bir faktın belə olmadığı halda nədən qalib Azərbaycan dövlətinə şər atırsan? 44 günlük Vətən Müharibəsindən sonra bölgəyə səfər edən BMT-nin və digər beynəlxalq təşkilatların nümayəndələri belə bir faktın olmadığını açıqlayıblar. Digər rüsvayçı "səbəb" isə müxtəlif cinayətlər törədən və buna görə saxlanılan, lakin barələrində məhkəmə qərarı olmayan şəxslərin "siyasi məhbus" adlandırılmasıdır. Halbuki "siyasi məhbus" kimlərə şamil edildiyini heç avropalı deputatların özləri belə bilmirlər. Anladıqları yalnız Azərbaycanın möhtəşəm azad, demokratik cəmiyyət quruculuğuna kölgə salmaq və Ermənistan üzərində parlaq hərbi, siyasi, diplomatik qələbəsini zərər vurmağa çalışmadır. Lakin anlamırlar hansı yol tutmalarından asılı olmayaraq Azərbaycan zəfər yolundan dönməyəcək və bu yolu Azərbaycan dövləti durduqca davam etdirəcək.

***İLHAM ƏLİYEV***

# Türkiyəli ekspert: "Rusiya və İranın Cənubi Qafqazla bağlı mövqeləri fərqlidir"






Cənubi Qafqaz regionunda kommunikasiyaların açılması məsələsində Rusiya və İranın mövqeləri ciddi şəkildə fərqlənir. Rusiya diplomatiyasının rəhbəri Sergey Lavrovun sülh perspektivləri ilə bağlı bəyanatlarına cavab olaraq rusiyalı səfirin İran Xarici İşlər Nazirliyinə çağırılması da bunu sübut edir. AZƏRTAC xəbər verir ki, bu fikri Ankaradakı Hacı Bayram Vəli Universitetinin dosenti İsmayıl Sarı bildirib. Ekspertin fikrincə, 44 günlük Vətən müharibəsinin nəticələri regionda kommunikasiyaların açılması perspektivlərini tədricən yaxşılaşdırır və bu, son nəticədə Cənubi Qafqazda qüvvələr balansının bütün spektrini dəyişəcək.

Ekspert əlavə edib: "Cənubi Qafqazda kommunikasiyaların bərpası təkcə Azərbaycan və Türkiyəyə deyil, həm də Rusiyaya ciddi strateji dividentlər gətirə bilər. Bu, Moskvaya xarici təzyiqləri azaltmağa imkan verəcək və Rusiyanın xarici ticarəti üçün yeni stimul olacaq".

İsmayıl Sarı qeyd edib ki, Moskva Cənubi Qafqazda kommunikasiyaların bərpası ideyasında israrlıdır, İran isə şimal sərhədlərində status-kvonu saxlamaq istəyini gizlətmir. Onun sözlərinə görə, Tehran Türkiyə və Azərbaycanın mövqelərinin möhkəmlənməsindən narahatlığını gizlətmədən, eyni zamanda, Moskvaya artan inamsızlığını nümayiş etdirir. "Tehran Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın şərq rayonları arasında kommunikasiyaların açılmasını İranın Avropa bazarlarına çıxış yollarının minimuma endirilməsi istiqamətində atılacaq addım hesab edir. Yəni, İranın Qərblə əlaqələri üçün yalnız bir variantı olacaq, o da Türkiyə vasitəsilə. Eyni zamanda, Ankara və Bakı İranın tranzit imkanlarına marağını itirəcək ki, bu da Tehranı Şərqlə Qərb arasında İpək Yolunun "alqoritmindən" çıxaracaq", -deyə Sarı bildirib.

Ekspert qeyd edib ki, İran tərəfinin "təhdid ritorikası" istisna olmaqla, regiondakı proseslərə qarşı mübarizə aparmaq üçün konkret planı yoxdur. O, buna misal olaraq, İranın xarici işlər naziri Abbas Araqçinin sentyabrın 5-də qonşu ölkələrin ərazi bütövlüyü ilə əlaqədar "qırmızı xətlər"lə bağlı bəyanatını göstərib.

Sarı qeyd edib ki, Tehrandan fərqli olaraq, Rusiya regionda əməkdaşlıq üçün çoxvektorlu kursa sadiqdir və bu kursa Ankara və Bakı ilə qarşılıqlı əlaqələr də daxildir. İran isə "3+3" formatının zəifləməsi ilə nəticələnə biləcək təhdid və təzyiq ritorikasına üstünlük verir.

Türkiyəli ekspert vurğulayıb: "İran tərəfi, həmçinin Rusiya Federasiyasının BƏƏ-nin Fars körfəzindəki iki mübahisəli adaya sahib olmasını dəstəkləyən son bəyanatlarını xatırlayır. Bütün bunlar İran və Rusiya Federasiyası arasında "strateji tərəfdaşlıq" təminatlarını şübhə altına alır".

Hacı Bayram Vəli Universitetinin dosenti hesab edir ki, bu gün əsas məsələ Rusiya və Azərbaycanın regiondakı proseslərə yaxından nəzər salmaq fonunda İranı Cənubi Qafqazdakı yeni reallıqları tanımağa sövq etməsidir.

# “Ermənistan bu proseslərdə pozucu mövqedədir”

“44 günlük Vətən savaşından sonra 10 noyabr sazişi imzalandı. 10 noyabr sazişi ilə atəşkəs oldu. Bu sazişi imzalayan üç dövlət başçısı qarşılıqlı öhdəlik götürmüşdü ki, Ermənistan-Azərbaycan arasında münaqişə sülh yolu ilə həll olunacaq”. Bu sözləri SİA-ya açıqlamasında siyasi ekspert, Strateji Planlaşdırma və Araşdırmalar İnstitutunun rəhbəri, politoloq Azad Məsiyev deyib.

O bildirib ki, Ermənistan öz üzərinə öhdəlik götürmüşdü ki, erməni silahlı qüvvələri Azərbaycan ərazisini tərk edəcəklər: ”Təəssüflər olsun ki, Ermənistan üzərinə götürdüyü heç bir öhdəliyi yerinə yetirmədi. 10 noyabr sazişinin heç bir müddəasını Ermənistan könüllü icra etmədi. 44 günlük Vətən savaşından sonra saziş imzalansa belə, Ermənistan öz təxribat əməllərindən əl çəkmədi. Azərbaycan ərazisində minalar basdırıldı. Mina terrorundan yüzlərlə insan əziyyət çəkdi. Ermənistan yenə də bu cür təxribatlarından əl çəkmir. Ermənistan ərazisindən Azərbaycana müntəzəm şəkildə silah-sursat daşınırdı. Bu cür proseslərə Azərbaycan tərəfi göz yuma bilməzdi. Nəhayət, Ermənistan Azərbaycan ərazisində növbəti mina terrorundan istifadə edərək təxribat törətdikdən sonra Azərbaycan məcbur oldu ki, antiterror əməliyyatı həyata keçirsin. Antiterror əməliyyatının sonunda Azərbaycan de-fakto öz suverenliyini bərpa etdi, seperatçılar ərazilərimizdən çıxarıldı. Eyni zamanda silahlı qüvvələr tam tərksilah olundu. Azərbaycan bu antiterror əməliyyatından sonra yenə də ermənilərə müraciət etdi ki, kim Azərbaycan vətəndaşlığını qəbul edib, Azərbaycan qanunlarına tabe olacaqsa, Azərbaycanda yaşayacaq. Kim tabe olmayacaqsa, gedəcək. Xankəndi və Xankəndi ətrafında yaşayan ermənilər Azərbaycanın bu çağırışına məhəl qoymadı, vətəndaşlığı qəbul etmədilər. Bu baxımdan Azərbaycanı könüllü olaraq tərk etdilər. Bu proseslərin də içində Rusiyanın sülhməramlı qüvvələri iştirak edirdilər. Azərbaycanın hər bir addımı sülhməramlı qüvvələrin nəzarəti altında idi. Xankəndidə yaşayan ermənilərin də Azərbaycanı tərk edib Ermənistana getməsi prosesi sülhməramlı qüvvələrin himayəsi altında oldu”.

”Ümumilikdə antiterror əməliyyatından sonra Azərbaycanda, Cənubi Qafqazda yeni situasiya yarandı. Bu, bir daha proseslərin Azərbaycanın nəzarəti altında olduğunun bariz göstəricisi idi. Cənubi Qafqazda ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra Azərbaycan bütün proseslərə nəzarət edir. Cənubi Qafqazdakı geosiyasi proseslərin tənzimlənməsində Azərbaycanın özünəməxsus çəkisi var.



Antiterror əməliyyatı ilə Azərbaycanın tam suverenliyini bərpa etdikdən sonra dövlətə çevrildi. Beynəlxalq aləmdə nüfuzu bir daha yüksək səviyyədə tanındı. Bu proseslər də davam etməkdədir. Faktiki olaraq Ermənistan 10 noyabr sazişinin 9-cu müddəasını icra etmir. Yəni nəqliyyat infrastrukturunun açılmasını həyata keçirmir. Yenə də Ermənistan bu proseslərdə pozucu mövqedədir. Hesab edirəm ki, Ermənistan 10 noyabr sazişinin 9-cu müddəasını icra etməlidir ki, Cənubi Qafqazda nəqliyyat infrastrukturu açılsın və həm Ermənistan, həm də Azərbaycan bu proseslərdən fayda götürsün” - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# Şübhəli narahatlıq...

***Əcəba, siyasi dialoqun aqibəti bu prosesdə iştirak etməyənləri niyə narahat etsin ki?***





Parlament seçkilərinin əsas və hərəkətli hissəsi artıq tamamlandı. Hazırda bəzi namizədlərin şikayətlərinə baxılması və nəticələrinin müvafiq qanunvericiliyə uyğun rəsmiləşdirilməsi mərhələsi davam etməkdədir. MSK-ya edilmiş şikayətlərin sayının ötən seçkilərlə müqayisə olunmaz dərəcədə az olduğunu nəzərə alsaq, sözügedən mərhələnin qısa müddətdə tamamlanacağını ehtimal edə bilərik. Şikayətlərin sayının azalması faktı özü-özlüyündə pozitiv haldır. Ümid edirik ki, bizim müvafiq elmi və analitik mərkəzlərimiz keçirilmiş parlament seçkilərini təhlil edəcək, habelə araşdırmaların nəticələri geniş ictimaiyyətə təqdim olunacaq. Əks halda, keçirilmiş seçkilər haqqında gələcək nəsillərin təsəvvürlərinin yalnız sosial şəbəkələrdə yaşanan “vəhşi demokratiyanın” təzahürləri əsasında formalaşa biləcəyi faktını gözardı etmiş olarıq.

Mövcud yazıda isə qısaca olaraq keçirilmiş seçkilərin yalnız bəzi əlamətdar xüsusiyyətlərini qeyd edək. Açıq-aydın görünürdü ki, iqtidar (Yeni Azərbaycan Partiyası) seçkilərdə malik olduğu geniş resurslarından istifadə etmədi. Hakim komanda malik olduğu inzibati və maliyyə resurslarından istifadə etmiş olsaydı, biz seçkilər zamanı iqtidar lehinə müxtəlif xarakterli kütləvi tədbirlərə şahidlik etmiş olardıq. Ədalət naminə vurğulamalıyıq ki, sözügedən təkzibolunmaz fakt namizədlər arasında rəqabətlilik potensialının bərabərləşdirilməsinə xidmət edib. Digər sözlərlə, iqtidarın bu cür siyasi “jesti” sayəsində “maliyyə fərqliliyi” amilinin təsiri minimuma çatdırılmışdır.

Digər önəmli qənaət ondan ibarətdir ki, artıq ölkənin siyasi proseslərində siyasi texnologiyalar mövcuddur.

Xarici ölkələrin təcrübəsini nəzərə alaraq onu da əlavə etməliyik ki, siyasi texnologiyaların mövcudluğu siyasi münasibətlərdə bilavasitə peşəkarlıq amilinin çəkisinin artmasından xəbər verir. Bəzi namizədlərin (hətta cəmiyyətdə bir o qədər də tanınmayan şəxslər) seçki texnologiyalarından istifadə etməsi nəticəsində onların rəqabət aparmaq potensialı əsaslı şəkildə artmışdır. Mətbuatda öz əksini tapmış məlumatlara əsasən, hətta bəzi seçki məntəqələrinin nəticələri belə ləğv olunub. Qeyd olunan amil bir daha onu göstərir ki, siyasi şivənlərin bütün qərəzli demaqogiyalarına rəğmən seçkilərdə rəqabət aparmaq mümkündür. Beləcə, biz bir daha ona əmin olduq ki, onların “boykot” oyunları sadəcə müxtəlif təxribatlara yol açan metoddur.

Ölkənin demək olar bütün regionlarında aktiv seçki kampaniyalarının keçirilməsi ondan xəbər verir ki, Azərbaycanda yeni siyasətçilər nəsli yetişir. Yeni simaların və müasir yanaşmaların siyasi proseslərdə iştirakı birmənalı olaraq demokratik münasibətlərin dərinləşməsinə xidmət edən təcrübədir. Əlbəttə ki, burada keçirilmiş seçkilərin bir çox digər demokratik təzahür formalarından geniş danışmaq olar. Ancaq, düşünürük ki, sözügedən vəzifə daha çox bizim elmi və analitik mərkəzlərimizin yaxın gələcəyinin işidir.




Odur ki, çalışaq vətəndaşı düşündürən başqa bir maraqlı sualın cavabını tapmağa çalışaq: “Axı niyə siyasi dialoqun aqibəti sözügedən prosesdə müxtəlif bəhanələrlə iştirak etməkdən boyun qaçan demaqoqları bu qədər çox narahat edir? Onların məsələ ilə bağlı ucuz və bilavasitə manipulyasiya xarakterli demaqogiyalarının məzmununa diqqət yetirin: “Dialoqda iştirak edən bir sıra partiyalar parlamentdən kənarda qalıblar. Bundan sonra ”iqtidar- müxalifət” dialoqu hansı formatda davam edəcək?”

Əlbəttə ki, onların bu cür ritorikası bilavasitə manipulyasiya xarakterlidir. Sözügedən metoddan istifadə isə sahib olduqları siyasi əxlaqın məzmunundan (məzmunsuzluğundan) xəbər verir. Əslində, bu onların şəxsi problemidir. 30 il siyasətlə “məşğul” olasan və bu müddət ərzində siyasətə demaqogiya, habelə təxribat və boşboğazlıqdan başqa heç nə gətirməyəsən?! Bu əslində siyasətçi kimi şəxsi faciənin və tükənmişliyin təzahürüdür.

Yaşanan bəzi hadisələr və bizim bəlalı radikallarımızın davranışı növbəti dəfə göstərir ki, sahib olduqları radikal təfəkkür tərzi hələ də cəmiyyət üçün təhdid yaradan əsas problemlərdəndir və onların siyasətdə mövcudluğu “alverçi” mahiyyətlidir. “Vətənpərvərlik”, “səmimiyyət” və “peşəkarlıq” məfhumlarının “siyasi alver” məfhumu ilə bir arada olması sadəcə mümkünsüzdür. Radikalçılığın siyasi riyakarlığı həm də ondadır ki, bu düşüncə tərzi şəxsi maraq və mənfəət naminə obyektiv həqiqəti nəinki inkar edir, hətta onu qərəzli şəkildə təhrif edir.

Məhz radikal təfəkkürün mahiyyətini bilәndən sonra bizə aydın olur ki, niyə siyasi dialoqun aqibəti demaqoqları bu qədər çox “narahat” edir. Siyasi dialoq mühiti və sağlam münasibətlər radikalçılığı boğur və onların manipulyasiya imkanlarını əsaslı şəkildə məhdudlaşdırır. Dialoq mühiti cəmiyyətin radikalçılığa qarşı təbii immunitetidir.

Məhz bina görə həmrəylik mühiti hər zaman radikal siyasətin hədəfindədir. Sağlam və yaradıcı siyasət dialoqdan kənar aparıla bilməz. Qeyd olunan təsbit siyasi aksiomdur. Buna görə də ucuz demaqoqlar iqtidar-müxalifət dialoqunun aqibəti ilə bağlı qərəzli sual və şərhlər verirlər. AXCP yeganə partiyadır ki, siyasi dialoqdan qaçır, yeganə partiyadır ki, seçkilərdə iştirak etməyib, yeganə partiyadır ki, konkret sahələrin inkişafı ilə bağlı öz konseptual təkliflərini cəmiyyətə və hökumətə təqdim etməyib və yeganə partiyadır ki, həmrəyliyi inkar edir. Odur ki, bütün mənalarda özünü sağlam siyasi proseslərdən məhrum etmiş və təklənmiş partiyanın siyasi dialoqu inkar etməsinin səbəbləri də tam olaraq aydındır.

Lüzumsuz polemikadan uzaq dayanaraq onu əlavə edək ki, siyasi dialoq mühiti ölkəmizdə aktiv şəkildə təşviq olduğu üçün seçkilər xarici qüvvələrin açıq müdaxiləsi olmadan keçib, ölkədə fəaliyyət göstərən 26 siyasi partiyadan 25-i seçki marafonuna qatılıb, seçkilərdə yeni simalar üzə çıxıb, müxtəlif seçki dairələrində namizədlər tərəfindən siyasi texnologiyalar vasitəsilə fəal təbliğat kampaniyalar aparılıb, rəqabət mühitini dəstəkləmək üçün Yeni Azərbaycan Partiyası və iqtidar inzibati resurslardan istifadə etməyib (bunu təsdiq edən fakt seçkilərdə iştirak etmiş seçicilərin statistikasıdır) və digər bu kimi pozitiv təmayüllü təzahürlər artıq ölkəmizin siyasi proseslərinin əsas xarakteristikalarına çevrilib. Odur ki, siyasi dialoq demokratik münasibətlərinin təkamül yolu ilə inkişaf etməsinin əsas işlək mexanizmlərindən biridir.

***Politoloq Asif Adil***



# Avropa şovinizmi və ifrat sağçılığı təbliğ etməklə yeni müharibələrə yaşıl işıq yandırır

***Bir fakt gün kimi aydındır ki, Azərbaycanın ədalətə və beynəlxalq hüquqa söykənən müstəqil siyasəti və onun uğurları əksər hallarda ikili standartları ilə diqqət çəkən bəzi Avropa ölkələri və beynəlxalq qurumlar tərəfindən qısqanclıqla qarşılanır. Xüsusilə Ermənistanın əsas havadarı və himayəçisi funksiyasını öz üzərinə götürən ABŞ, Fransa, Almaniya kimi dövlətlər və bəzi beynəlxalq təşkilatlar hələ də Azərbaycanofob fəaliyyətlərini davam etdirirlər. Onlar illərlə işğalı həyata keçirən Ermənistanla işğala məruz qalan Azərbaycan arasında fərq qoymadan ədalətsiz mövqe sərgiləyiblər.***



Bəli, bu gün müxtəlif Avropa platformalarında Azərbaycana qarşı qərəzli müzakirələr həyata keçirilməkdədir. Bunun əsas səbəbi ondan ibarətdir ki, Azərbaycan öz gücü ilə işğaldakı torpaqlarını azad edib və oraya Böyük Qayıdış başlayıb. Bu isə sanki Avropanı xeyli əndişələndirir. Çünki keçmiş münaqişə vəziyyəti ermənipərəst Avropaya Cənubi Qafqaz regionunda öz mövcudluğunu qoruyub saxlamağa və məkrli maraqlarını təmin etməyə imkan verirdi. Onlar məhz 4 il öncəyədək işğalçı, bu gün isə məğlub ölkə həyatını yaşayan Ermənistandan istifadə edərək hələ də Cənubi Qafqazda möhkəmlənmək istəyirlər. Lakin onların bütün bu vandal hərəkətlərinə rəğmən ölkəmiz dimdik ayaqdadır və bizə qarşı atılan bütün qeyri- adekvat addımlara vaxtında, həm də artıqlaması ilə cavab verilir.

Qondarma «Dağlıq Qarabağ Respublikası» özünü buraxdığını elan etdikdən sonra hələ də Avropa Parlamentinin və bu quruma üzv ölkələrin bəzilərinin onu müdafiə etməsi siyasi riyakarlıqdan xəbər verir və bölgədə vəziyyətin yenidən gərginləşməsinə xidmət edir. Avropa Parlamenti Azərbaycan torpaqlarının işğalı dövründə bu qondarma quruma dəstək verməklə işğalın uzun illər davam etməsi, on minlərlə azərbaycanlının qətlə yetirilməsi üçün məsuliyyət daşıyırdı.

Məhz bu cür qərəzli və obyektivlikdən uzaq fəaliyyəti ilə bəzi Avropa ölkələri nüfuzlarına sarsıdıcı zərbə vurur, erməni lobbisinin və onu dəstəkləyən qüvvələrin əlində oyuncağa çevrildiyini göstərir. Qərbin anti-Azərbaycan və İslamofob siyasətinin nəticəsidir ki, Avropa Parlamenti ilə Azərbaycanın münasibətləri bu gün də aşağı səviyyədədir. Bu qurumda təmsil olunan bəzi deputatlar Avropa seçicilərinin deyil, lobbi qruplarının maraqlarını təmsil edir. Belə davranış həm də şovinizmin, ifrat sağ düşüncənin təzahürüdür. Bu yanlış siyasəti ilə Avropa Parlamenti Avropa İttifaqının Cənubi Qafqaz siyasətini hələ də təhlükə altına atmaqda davam edir.



Sual olunur: ölkəmizə qarşı belə ədalətsiz mühitin olduğu Avropaya biz necə inteqrasiya edə bilərik? Axı onlar ədaləti görmək istəmədikləri üçün özlərini hələ də korluğa vururlarsa, ölkəmizin haqlı istək və əməllərini görməzdən gəlirlərsə biz onlarla necə bir yerdə addımlaya bilərik? Bütün bunlar bir daha onu göstərir ki, Avropa hər zaman öz davranışlarında, mövqelərində səmimiyyətdən uzaq olub, diskriminasiya halına yer verib. Nəzərə almaq lazımdır ki, Avropa bununla həm də özünün maraqlarını təhlükə qarşısına qoyur. Çünki Avropanın enerji təhlükəsizliyi bu gün birbaşa Azərbaycandan asılıdır. Avropa İttifaqı rəsmiləri də bunu dəfələrlə vurğulayıblar.

Ən acınacaqlısı isə odur ki, bu gün Avropa hələ də xaricə demokratiya ixracı adı ilə ölkələrin daxili işlərinə müdaxilə edir, hakimiyyətlərin dəyişdirilməsinə çalışır. Ancaq harada ki, xalqla iqtidar birliyi var, orada onların avantürası baş tutmur. Necə ki, bu oyunu dəfələrlə ölkəmizə qarşı oynasalar da planları iflasa uğramışdır. Bundan başqa, hazırda dünyada davam edən ən qanlı müharibələrin də qızışdırıcıları ABŞ və onun marionetkası rolunda çıxış edən Avropa ölkələridir. Onlar sözdə dünyada sülhə çağırış etsələr də əslində Ukraynada və Qəzzada başlayan müharibələrin başa çatmasına, atəşkəs elan olunmasına da mane olurlar.

Qeyd edək ki, noyabr ayında Azərbaycan beynəlxalq diqqət mərkəzində olacaq böyük bir tədbirə – COP29 sammitinə ev sahibliyi edəcək. Bu sammit qlobal iqlim dəyişiklikləri və davamlı inkişaf məsələlərinin müzakirə olunacağı mühüm bir platformadır. Lakin bu əhəmiyyətli tədbir öncəsi yenə də Qərb dairələrində Azərbaycana qarşı şübhəli təzyiqlərin artdığı müşahidə edilir. Bu təzyiqlərin mərkəzində Almaniya Bundestaqının Sosial-Demokrat Partiyasından olan üzvü Frank Şvabe dayanır.

Frank Şvabe AŞPA-dakı sosial-demokratlar qrupunun və Almaniyanın təşkilatdakı nümayəndə heyətinin rəhbəri kimi tanınır. Lakin Şvabenin siyasi karyerasının anti-Azərbaycan, anti-türk və anti-İslam tezisləri üzərində qurulması, onun Azərbaycana qarşı ittihamlarının ciddiyyətliyini sual altına qoyur. Şvabe COP29 öncəsi Azərbaycanda «siyasi məhbus» probleminin olduğunu qərəzli şəkildə iddia edib. O, bu böhtanı ilə COP29-a qarşı siyasi təxribata hazırlaşır. Bu anti-Azərbaycan ünsürün «siyasi məhbuslar» böhtanı birbaşa ermənipəstlikdən qaynaqlanır.

Şvabenin böhtanlarını, eyni zamanda, Qərbin xristian səlibçi siyasətinin və İslamofob mahiyyətinin tərkib hissəsi də adlandırmaq olar. Ona görə ki, Qərbi Avropa ölkələri və ABŞ bu gün də bu rəzil siyasətin əsas daşıyıcılarıdır. Bütün bunlara rəğmən demək olar ki, Qərbin Azərbaycana qarşı qərəzli siyasəti Azərbaycanın Avropa Şurasını tərk etmə ehtimalını gücləndirir. Təbii ki, qarşımızdakı bu seçim ölkəmizin müstəqil siyasətini gücləndirmək və onun milli maraqlarını qorumaq məqsədi daşıyır. Bir sözlə, əgər Azərbaycan Avropa Şurasını tərk edərsə, bu, yalnız regional siyasi balansa deyil, həm də Avropa institutlarının nüfuzuna mənfi təsir edəcəkdir. Görünən odur ki, Avropa Şurası ölkəmizin strateji əhəmiyyətini hələ də dərk etmək iqtidarında deyildir. Çünki Azərbaycan bu gün Avrpoanın enerji təminatını öz üzərinə götürən qüdrətli ölkədir.

Əvvəldə qeyd etdiyimiz kimi, ABŞ və Qərbi Avropa ölkələri hələ də Azərbaycandakı siyasi və iqtisadi sabitliyi həzm edə bilmirlər. Ölkəmiz bu təzyiqlər qarşısında qətiyyətli dayandıqca onlar daha qərəzli mövqelər sərgiləyirlər. Burada bir xüsusi məqamı da qeyd etmək lazımdır ki, Qərbin Azərbaycandakı «5-ci kolon»a təsir imkanları azaldığı üçün onlar təxribalarını yeni simaların, yəni yeni satqınların əli ilə həyata keçirmək istəyirlər. ABŞ və Qərbi Avropa ölkələri Cənubi Qafqazda yeni müharibə ocaqları qalamaq üçün bu gün birmənalı olaraq Ermənistanı silahlandırırlar. Onların hayları silahlandırması regionda sabitliyi ciddi şəkildə pozur. Yəni, Qərbin belə rəzil ermənipərəst siyasəti regional sülh danışıqlarına əsas maneədir.





Xüsusilə Makron hakimiyyətinin son illərdə Ermənistanı silahlandırma dəfələrlə Azərbaycan tərəfindən pislənilib. Yəni, Fransa kimi ölkələr beynəlxalq hüquq çərçivəsində hərəkət etməli olduğu halda, silah satışını həyata keçirərkən mülki əhalinin təhlükəsizliyini nəzərə almır. Bu silahlandırma siyasəti, eyni zamanda, münaqişələrin həllini təhdid edir.

Avropa ölkələri üçün digər utancverici hadisə isə İsveç, Estoniya və Latviya səfirlərinin İsveçdən deport olunmuş Famil Xəlilovun ailəsini qəbul etmələridir. Bu, birbaşa Azərbaycanın daxili işlərinə qarışmaqdır. Həmin dövlətlərin səfirlərinin beynəlxalq hüquqa zidd olan bu davranışları bir daha göstərir ki, onlar qərəzli və ikili standarta əsaslanan siyasətlərindən hələ də vaz keçmək istəmirlər.

***Elçin Zaman***

# MÜƏMMALI MANEVRLƏR



*Cənubi Qafqaz uğrunda mübarizənin getdikcə daha da artması, qəlizləşməsi fonunda Ermənistanın baş naziri Nikol Paşinyanın qorxu kompleksi özünü büruzə verməyə başlayıb. Qərbin, ABŞ kəşfiyyatının məhz özünün Ermənistandakı agentini, daha dəqiq desək, Təhlükəsizlik Şurasının rəhbəri Armen Qriqoryanı hakimiyyətə gətirməkdə maraqlı olduğundan duyuq düşən erməni baş nazirin öz hakimiyyətini itirmək qorxusundan ikibaşlı oyun oynamaq niyyətini və planlarını görməmək mümkün deyil.*

Belə görünür ki, Nikol Vovayeviç özünün hakimiyyət kürsüsünü qorumaq üçün bu dəfə Moskva ilə münasibətlərini bərpa etmək fikrinə düşüb və bunun üçün də müəmmalı manevrlərə əl atır.

## Vovayeviç üçün mövqe dəyişmək, manevrlər, manipulyasiyalar etmək adi haldır

Göründüyü kimi, indi də erməni baş nazir Qərbə xəyanət etməkdən çəkinmir. Öz ölkəsinin, öz dövlətinin hələ də mövcudluğuna görə borclu olmalı olduğu Rusiyaya bir qədər əvvəl xəyanət edən Nikolun indi də ona hakimiyyət kürsüsünü “bağışlayan” Qərbə xəyanət etməkdən çəkinmədiyi göz önündədir. Qərbin layihəsi olan Paşinyan hakimiyyətini itirməmək üçün ona həmin kürsünü “bağışlayan” tərəfə asanlıqla xəyanət edə biləcəyinə kimsənin zərrə qədər də şübhəsi yoxdur. Elə erməni cəmiyyəti özü də yaxşı bilir ki, seçdikləri ölkə rəhbəri istənilən anda mövqeyini yüz səksən dərəcə dəyişə və üz tutduqları, ümid etdikləri, hər zaman yardım, iyanə umduqları, əksər hallarda da dəstəyini gördükləri Qərbi bu dəfə də Rusiyanın ayaqları altına ata bilər. Yaxşı bilir ki, Nikol Paşinyan üçün hakimiyyət kürsüsü hər şeydən öndə, hər məqamdan irəlidədir və öz kürsüsünü əldən verməmək üçün Ermənistanı belə çəkinmədən güdaza verər.Hər halda, bir zamanlar əli sarıqlı, beli çantalı bir küçə nümayişçisinin hakimiyyəti ələ keçirənə qədər az qala qızıldan dağlar vəd etməsi, ölkəsini guya uğurlu gələcəyə aparacağı barədə söz verməsinin ardınca, daha dəqiq desək, xalqını aldadaraq, baş nazir kürsüsünü qamarlamasından sonra ölkəsi üçün, ölkə vətəndaşları üçün yaxşılığa doğri zərrə qədər də dəyişikliyin olmamasını, əksinə, daha fəlakətli, acınacaqlı duruma sürüklənildiklərini haylar yaxşıca müşahidə etdilər və bildilər ki, Vovayeviç üçün mövqe dəyişmək, manevrlər, manipulyasiyalar etmək adi haldır. Yaxşı müşahidə etdilər ki, aldanılaraq seçdikləri erməni baş nazir istənilən anda sözünü də, fikrini də dəyişə bilər və istənilən anda onun mövqeyinin də kəskin şəkildə fərqənəcəyi gözləniləndir.

## Erməni baş nazir bu vaxta qədər xəyanət etdiyi Rusiyaya üzsüzcəsinə üz tutmaq qərarına gəlib

Belə məlum olur ki, Qərbin məhz Cənubi Qafqaz siyasətinin İrəvan üzərindən qurulmasının və yeridilməsinin Ermənistan üçün nə qədər təhlükəli olduğunu başda elə baş nazir Nikol Paşinyan özü olmaqla, ermənilər gec də olsa anlamağa başlayıblar. Şəxsən Paşinyan özü çox gözəl bilir ki, sərf etmədiyi anda dərhal onun kürsüsünün əlindən alınması üçün Qərb bütün mümkün addımlara əl atar. Elə haylar özləri də gözəl bilirlər ki, Qərb üçün Ermənistanın maraqları yaxşı halda ancaq ən axırıncı yerdə ola bilər və bu gün hansısa yardım, hansısa dəstək ermənilər, yaxud İrəvan üçün yox, regionda öz maraqlarının təmin edilməsi üçündür. Faktiki olaraq görünən odur ki, Qərb Ermənistandan, erməni cəmiyyətindən də elə həmin maraqları



naminə istifadə edir və haylar, elə rəsmi İrəvan özü də bir alət hesab olunur. Özünün alət olduğuna artıq çoxdan əmin olan erməni baş nazir indi artıq Qərbin, ABŞ kəşfiyyatının Ermənistanda olan agentini, Təhlükəsizlik Şurasının rəhbəri Armen Qriqoryanı hakimiyyətə gətirmək istəyini, marağını gördüyü zaman, daha doğrusu, ayağının altının qazılmasını hiss etdiyi məqamda bu vaxta kimi ayaqlar altına atdığı, xəyanət etdiyi Rusiyaya üzsüzcəsinə üz tutmaq qərarına gəlib və bunun üçün də çox müəmmalı gedişlər, manevrlər etməkdədir.

TƏHLİL

## Ermənistanın maraqlarının zərrə qədər də məna kəsb etmədiyi ortada olan manevrlərdən və manipulyasiyalardan görünür

Bu vaxta qədər Qərbin, ABŞ kimi bir dövlətin əmrlərinə boyun əyən, təlimatlarına uyğun şəkildə davranan, hətta dəfələrlə Rusiya əleyhinə çıxış edərək, məhz Qərbin siyasi kursuna sadiqliyini göstərən Ermənistan lideri ifrat dərəcədə qərbyönümlü biri kimi tanınıb. İndiyədək, hətta son günlərə qədər Rusiyaya qarşı çıxışlar etməsi fonunda hər kəs belə qənaətdə olub ki, Paşinyan məhz Qərbin sadiq nökəri olduğunu açıq şəkildə göstərir və bəyan edir. Rusiya ilə Ermənistanın da, özünün də münasibətlərinin korlanmasını nümayişkəranə şəkildə elə Qərbə yaltaqlanmaq üçün, öz kürsüsünü qorumaq üçün Vovayeviç göstərirdi. Bunu son hadisələr təsdiq edir. Təsdiq edir ki, öz hakimiyyəti təhlükə altında olduğu zaman, bir möv, ayağının tapdalanacağı qorxusu belə peyda olduğu anda Paşinyanın sığındığı tərəfə dərhal xəyanət etməsi gözləniləndir. Əgər hələ hakimiyyəti əlindən çıxmamış, öz kürsüsünü itirməmiş, sadəcə bir təhlükə hiss etdiyi zaman erməni baş nazir manipulyasiyalar, müəmmalı manevrlər edirsə, deməli, nə isə əlindən getdiyi təqdirdə daha kəskin şəkildə mövqeyini də dəyişəcək, hətta maskası da cırılacaq. Bir sözlə, Nikol Paşinyan üçün də hayların, erməni xalqının, erməni cəmiyyətinin, bütövlükdə Ermənistanın maraqlarının zərrə qədər də məna kəsb etmədiyi ortada olan manevrlərdən və manipulyasiyalardan görünür.

## Qərb bilməli idi ki, onun “ipinin üstünə yük yığmaq” olmaz

Bir çoxları, daha doğrusu, erməni siyasətçilərinin əksəriyyəti bu vaxta qədər hesab edib ki, çox çətin geosiyasi seçim qarşısında ancaq Qərbə üz tutmaqdan başqa Nikol Paşinyanın qətiyyən yolu yoxdur. Hətta belə zənn ediblər və gözləyiblər ki, ən yaxın zamanda Vovayeviç ölkəsinin KTMT-dən çıxması barədə qərarını da bəyan edəcək. Təbii ki, həmin qərarını məhz Qərbə “xoş gəlmək” üçün verəcəyi qənaətində olan ermənilər çoxluq təşkil ediblər. Onlar elə zənn ediblər ki, Ermənistana mütəmadi olaraq, iqtisadi-ticari




güzəştlər edən Avrasiya İqtisadi İttifaqına yaltaqlanmaq, həmin ittifaqa özünü “yaxşı göstərmək” üçün Nikol Paşinyan hətta Ermənistan-Rusiya hərbi müttəfiqlik sazişini də yaxın zamanda pozacaq. İndi onun tamamilə fərli müstəvidə, fərqli rakursda özünü göstərməsi, tamamilə müəmmalı manevrlərə əl atması ilk növbədə erməni cəmiyyətini, hayların özlərini də çaşdırıb. Amma haylar əslində bilməli idilər ki, Paşinyanın “ipinin üstünə yük yığmaq” olmaz və onun üçün nəinki heç bir ermənin, ümumlikdə Ermənistanın belə maraqları qətiyyən önəmli deyil. Bilməli idilər ki, erməni baş naziri üçün elə baş nazir kürsüsü hər zaman önəmli olub və elə indi də eyni şəkildə məhz həmin kürsü, vəzifə kreslosu önəmlidir. Ələlxüsus da Qərb dairələri bilməli idilər ki, küçə nümayişləri sayəsində, Qərbin layihəsi olmaqla hakimiyyəti qamarlayan, bunun üçün öz xalqını da aldadan, öz xalqı qarşısında da manipulyasiyalar edən küçə nümayişçisi bir zaman da hakimiyyətini itirmək qorxusu altında onların özlərinə də manevrlər, manipulyasiyalar edəcək. Yəni, Qərb erməni baş nazirin münipulyasiyalar edərək, müəmmalı manevrlərə əl atacağını əvvəlcədən bilməli idi.

## Hakimiyyət kürsüsünü hər şeydən üstün tutan birinə etibar edənlər üçün müəmmalı manevrlər bir dərs olar

Qərbin Ermənistana intensiv hərbi-siyasi dəstəyi fonunda erməni baş nazirinin ancaq qərbyönümlü olacağı gözlənilib və əgər onun dəyişkən olması, sözünü, fikrini, mövqeyini mütəmadi şəkildə dəyişməkdə qətiyyən tərəddüd etməməsi nəzərə alınmasa, belə gözləntinin normal olması qənaətində haqlı olardıq. Xüsusən də, ABŞ hərbçilərinin Ermənistanda təlimlər keçməsi, amerikalıların Zəngəzur bölgəsində qeyri-leqal da olsa, hərbi baza yerləşdirməsi, Avropa Birliyinin dırnaqarası “Sülh Fondu”ndan Ermənistana hərbi məqsədlər üçün maliyyə vəsaiti ayırması, yardım adı altında pullar köçürməsi fonunda Nikoldan erməni cəmiyyəti də başqa heç də gözləməzdi. Amma, məsələ burasındadır ki, görünür, haylar özləri də bərk yanılıblar və indi Paşinyanın müəmmalı manevrlərini gördükdə bunu, yəni yanıldıqlarını etiraf etmək məcburiyyətindədirlər. Heç şübhəsiz ki, bu kontekstdə erməni cəmiyyətinin şok içində olmasını da hardasa başa düşmək olar. Lakin öz hakimiyyət kürsüsünü hər məqamdan üstün tutan biri haqqında belə qəti qənaətə gəlmək, ona etibar etmək axmaqlıqdır. Belə görünür ki, bu axmaqlıq elə Qərb üçün də xarakterikdir. Əks halda Vovayeviç öz layihəsi olaraq qəbul etməz, ona görə vəsaitlər, maliyyə sərf etməzdi. Hər halda, müəmmalı manevrlər Qərb üçün bir dərs olar.

**İnam Hacıyev**



# “Lukaşenko Paşinyana xəbərdarlıq etdi”





*“Belarus prezidentinin Paşinyanla söhbətləri barədə danışması və söhbətin təfərrüatlarını açıqlaması ilə Ermənistanın təcavüzkar ideologiyasının mahiyyətini açıb”*

Ötən gün Belarus prezidenti Aleksandr Lukaşenko İrəvana ünvanlanan bir sıra bəyanatlar, o cümlədən Ermənistanın baş naziri ilə pərdəarxası danışıqların məzmunu ilə bağlı açıqlamalar verib. O cümlədən, Belarus prezidenti əmin olduğunu bildirib ki, son illər Azərbaycanın Qarabağ bölgəsində baş verən hadisələrdə Ermənistan rəhbərliyi günahkardır. “Qarabağda baş verənlər isə təkcə Ermənistan rəhbərliyinin günahıdır. Mən şəxsən onlara (Ermənistan hakimiyyətinə- red.) xəbərdarlıq etdim: onlara (Azərbaycana- red.) bu əraziləri qaytarın. Üstəlik, onlar (Ermənistan hakimiyyəti- red.) buraların onların əraziləri olmadığını qəbul edirlər. Bəli, bunlar bizim torpaqlarımız deyil, Azərbaycan torpaqlarıdır. Amma biz (Ermənistan- red.) təslim olmayacağıq-döyüşəcəyik”- dedilər,- Lukaşenko Ermənistan hakimiyyəti ilə söhbətlərini xatırladıb.

Belarus lideri qeyd edib ki, o, Putinlə birgə İrəvanla Bakı arasındakı problemləri sülh yolu ilə həll etmək üçün Paşinyana yaxınlaşıb. “Biz müharibəni başa vurduq. Bəs onda niyə indi Rusiyadan, hətta bizdən də inciyirsiniz? Siz özünüz də (Paşinyan– red.) etiraf etdiniz ki, Qarabağ Azərbaycan ərazisidir”. Lukaşenko Ermənistanın hazırkı siyasi kursuna da şübhə ilə yanaşdığını bildirib. “Biz ermənilərə hər cür kömək etməyə çalışdıq, ən yaxın insanlarla əməkdaşlıq etdik, hər cür kömək təklif etdik. Amma, dedilər ki, biz Qərbə, Aİ-yə üz tutmaq istəyirik. Onlara izah etdik ki, biz Qərblə, amerikalılarla əməkdaşlığa qarşı deyilik, lakin siz bizin regionda onların siyasətini aparırsınız”,- deyə Belta agentliyi onun sözlərini sitat gətirir.

Lukaşenkonun bu mesajlarını İrəvana necə şərh etmək lazımdır? Belaruslu politoloqlar bununla bağlı fikirlərini “Caliber” analitik mərkəzinə açıqlayıblar. Ekspertlərin fikirlərini oxucularımıza təqdim edirik.

**İttifaq dövlətinin siyasəti üzrə ekspert, MDBMİ-nin professoru Kirill Koktışın** sözlərinə görə, Paşinyanın Belarusa qarşı bir sıra qalmaqallı bəyanatlar verməsindən təxminən üç aya yaxın vaxt keçib və aydındır ki, bu fikirlər havada asılıb, cavabsız qalaraq, Belarusa qarşı mənfi PR-fon kimi istifadə edilmişdir.

“Və aydındır ki, vaxtı gələndə bu bəyanatlara cavab vermək lazım idi. Mən hesab edirəm ki, Lukaşenko xalq diplomatiyası elementindən çox adekvat istifadə etdi, öz mövqeyini bildirdi və göstərdi ki, Minskdə həm rəsmi, həm də pərdəarxası diplomatiya ilə İrəvandan fərqli olaraq hər şey yüksək səviyyədədir”, - politoloq qeyd edib.

Onun fikrincə, Lukaşenkonun görüş zamanı Ermənistan xalqına müraciəti erməni elitasının öz cəmiyyətindən ayrı mövcud olduğunu göstərən haldır.

“Lukaşenko özünü geniş xalq dəstəyinə arxalanan, əsas subyektin xalq olduğuna inanan və bunu dəfələrlə sübut edən siyasətçi kimi aparır. Və bu halda Paşinyanla birbaşa ünsiyyət mənasız olduğu üçün o, birbaşa erməni xalqına müraciət edərək öz fikirlərini izah edib, xalqın maraqlarının harada olduğunu göstərib. Axı Qərb, tarixin göstərdiyi kimi, həmişə elita ilə cəmiyyətin və bu ölkədə yaşayan insanların həyatı bahasına sövdələşir və son nəticədə elitanın gördüyü hər şeyin əvəzini ödəməlidir. Nəzərə almaq lazımdır ki, bu, Belarusda yaşayan milli icmalarla görüş zamanı baş verib, ona görə də Lukaşenkonun müraciəti həm xarici, həm də daxili auditoriya üçün hərtərəfli mesaja malik olub”,– K.Koktış bildirib.

**Belaruslu politoloq, siyasi elmlər namizədi Sergey Tomiçin** fikrincə, Lukaşenkonun dedikləri İrəvan üçün mühüm mesajdır.

“Belarus prezidentinin Paşinyanla söhbətləri barədə danışması və onların təfərrüatlarını açıqlaması təbii ki, ciddi göstəricidir və bununla o, Ermənistanın təcavüzkar ideologiyasının mahiyyətini açıb. Və Paşinyan, əlbəttə ki, heç də “sülh göyərçini” deyil. Sadəcə olaraq şəraitə uyğunlaşdı. Kiçik mənada, bu, Lukaşenkonun iyun tezisləri üçün İrəvana qayıtmasıdır. Yəni, Lukaşenko İrəvanın oyununu kifayət qədər aydın şəkildə ortaya qoydu- Paşinyan Minsk haqqında mənfi danışarkən, həmçinin, faktiki olaraq Rusiyanı ittiham edəndə- bu texnika tamamilə göz qabağındadır.

Demək olar ki, Lukaşenko Paşinyan kimi açıq-aşkar sərt və kəskin hücumlar etmədən, daha dinc və sakit formada Paşinyanın baş nazirliyinə başladığı andan bütün oyununu, bütün bu müddət ərzində Ermənistanın siyasətinin incəliklərini ortaya qoydu. O, Ermənistanın Qərbə yönəlik siyasi planlarına və bununla bağlı erməni xəyallarına da toxunub. Və biz görürük ki, Lukaşenko özünün təsirli siyasi təcrübəsinin yüksəkliyindən təcrübəsiz Paşinyana siyasi kursun dəyişdirilməsində mümkün səhv barədə necə xəbərdarlıq edir. Yenə də gözəgörünməz şəkildə, mehriban tonda. Bu, sadəcə olaraq, Lukaşenkonun Paşinyandan daha hörmətli və peşəkar bir siyasətçi kimi səviyyəsini göstərir. O, obrazlı şəkildə aydınlaşdırdı ki, nəyisə hərəkətə keçirib bəyan etməzdən əvvəl yeddi dəfə ölçmək lazımdır”,- deyə S.Tomiç yekunlaşdırıb.

***Tərcümə - Elçin Bayramlı***

# “İndi Qarabağ rahat nəfəs alır”



***“Qarabağda keçirilən antiterror tədbirləri Azərbaycan ərazisində uzun illərdir davam edən erməni separatizminə son qoydu, bununla ölkə ərazisində separatizmin kökü kəsildi.***

Azərbaycan dövləti 44 günlük vətən müharibəsində Qarabağ ərazisində erməni mülki əhalisinə zərər dəyməməsi üçün Xankəndi və ətraf ərazilərdə hərbi əməliyyatlar aparmadı, bununla orada məskunlaşmış qanunsuz erməni silahlı dəstələrinin tərki-silah edilməsinə, kənar yerlərdən Azərbaycan ərazisinə sonradan yerləşdirilmiş silahli erməni dəstələrinin, terrorçuların ərazini tərk etməsini tələb etdi. Lakin orada bir qrup cinayətkar xunta, separatçı rejim, Vardanyan kimi dələduzlar orada daha da möhkəmlənmək, hansısa dövlətin qurulmasından dəm vurmağa başladılar, Azərbaycan torpaqlarını talan edərək ətraf mühitimizə zərər vururdular, bu isə vəziyyəti dözülməz həddə çatdırdı”. Bu sözləri SİA-ya açıqlamasında siyasi ekspert Vüqar Əhmədov deyib. O bildirib ki, Şuşa-Laçın yolunda sivil etiraz aksiyaları fondunda antiterror tədbirinə zərurət yetişdi: “Azərbaycan ordusu çox peşəkar əməliyyat keçirərək qanunsuz silahlı dəstələri, onların başçılarını həbs və tərki-silah etdi, bu Azərbaycan ərazisində uzun illər kök salmış bir separatçı yuvanın, qara yaranın nəhayət kökündən kəsilib atılması, Qarabağımızın rahat nəfəs almasına rəvac verdi. Bu tədbir olmadan biz Qarabağda tam təhlükəsizlik və rifahdan danışa bilməzdik, üstəlik Azərbaycan dövlətinin humanistliyi erməni əhaliyə toxunmamaq olmuşdur.Anti-terror tədbiri Azərbaycan tarixi üçün çox önəmli bir addım, ermənilərin Azərbaycan ərazisində yaratdığı separatizmi kökündən qurutmağa hesablanmış bir əməliyyat idi ki, bununla ermənilərin Azərbaycan ərazisi daxilində hər hansı təxribat törətmək imkanı qalmadı. Bu Azərbaycan dövlətinin hərbi qüdrəti və cəsarətli addımı idi, doğrudur bu əməliyyat nəticəsində qərəzli dairələrdən Azərbaycana qarşı hücumlar oldu, lakin Azərbaycan informasiya cəbhəsində də bunu uğurla dəf etdi. İndi Qarabağ rahat nəfəs alır, Azərbaycan əhalisi rahat şəkildə Qarabağ ərazisində hərəkət edir, Qarabağ bu gün tam təhlükəsizdir və bütün kommunikasiya nəqliyyat qovşaqları açılır. Anti-terror əməliyyatından əvvəl bunu söyləmək çətin olardı, ona görə cənab Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi altında baş tutan bu tədbirin çox böyük tarixi-siyasi əhəmiyyəti vardır, bununla Azərbaycan öz ərazisində qeyri-qanuni hərbi qruplaşmaların olmayacağını, erməni separatizminə ərazisində yol verməyəcəyini nümayiş etdirərək tarixi ədaləti bərpa etdi. İndi Azərbaycan ərazisi və sərhədləri tam və bütöv şəkildə qorunur və müdafiə olunur”.

***Səbinə Hüseynli***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

# Toyun bahalısı yaxşıdır, yoxsa ucuzu?

## *Bahalı toy boşanmalara səbəb olur, sərfəli toy ailənin uzunömürlülüyünə xidmət edir*

ABŞ alimləri və tədqiqat institutlarının birgə araşdırması nəticəsində məlum olub ki, yüksək büdcəli toy edən cütlüklərin boşanma ehtimalı aşağı büdcəli toy edənlərə nisbətən daha çoxdur. Tədqiqatçılar toyuna 25.000 dollardan çox xərc çəkən hər 10 cütlükdən 1-nin 3 il ərzində boşandığını açıqlayıb.



Böyük Britaniyanın Evlilik Fondunun direktoru Harri Benson araşdırmanı belə şərh edib: "Bu məlumatlar bizə göstərir ki, ABŞ-da bahalı toylar evlilik üçün pis başlanğıcdır və təbii olaraq yeni ailəyə borc yaradır. Bu araşdırma göstərir ki, ümumiyyətlə, toyların bahalı olması bizim həyatımız üçün heç bir məna kəsb etmir, mənfi təsirlərindən başqa. Evliliyə hazırlaşan gənclər bu özəl günü öz ailələri və dostları ilə qeyd etmək üçün sadə bir məclislə evlənsələr, daha az pul xərcləsələr gələcək problemləri də az olar".

Maraqlıdır, bahalı toylar boşanmalara səbəb olurmu? Bəs maddi vəziyyəti çox yaxşı olanların nikahlarına bu vəziyyət necə təsir edir? Evlilikdən əvvəl və sonra yarana biləcək maddi çətinliklərin qarşısını almaq üçün cütlüklər nələrə diqqət etməlidirlər?

### Evliliyi səyahət kimi düşünün

Zənnimcə, evlilik insan üçün bir səyahətdir, səfərdir. Bu səyahətin maraqlı və uzun olması, habelə tərəflərin heç biri üçün cansıxıcı olmaması səyahətə çıxan cütlükdən asılıdır. Necə ki, biz səfərə çıxanda bütün planlarımızı, arzularımızı, səfərdən umduqlarımızı öz səyahət çantamızı yığarkən planlaşdırırıq, bəzilərimiz, həttə səyahət gündəliyi tutur, ediləcək hər şeyi addım-addım yazır - harada dincələcəyik, nə qədər büdcəmiz var, xərclərimizi necə planlaşdıracağıq, hamısını əvvəldən hesablayırıq, eləcə də evlənəndə belə etməliyik.

Evlənmədən öncə, nişanlananda, toya hazırlaşanda da bu planlar uzun-uzadı ölçülüb-biçilməlidir mənсə. Evləndikdən sonra borc batağında üzməmək, daha rahat həyat keçirmək, ömür-gün yoldaşımızla düşüncələrimizin üst-üstə düşməsi kimi vacib detallar öncədən düşünülməlidir.

Birlikdə yaşamağa, həyatı paylaşmağa və toya hazırlıq gənclərin ən şirin həyəcanıdır, bu dövrü mal-mülk, bahalı restoran, daha bahalı zinət əşyaları, daha bahalı ev əşyaları haqqında dava-dalaşla keçirən tərəflərin ömür yolu da uzun olmur. Sağlam ünsiyyət və müzakirə mədəniyyəti ən vacib xırdalıqdır bu anlarda, əgər tərəflər bu ünsiyyəti qura bilmirlərsə, müzakirə mədəniyyətləri yoxdursa və dünya malı üçün bir-birindən incik düşürsə, bu evlilik başlamadan bitsə daha məqbuldur.

### "Bahalı toy prestijdir"

Toya hazırlıq prosesinin ən cansıxıcı mərhələsi də şadlıq evləri və menyu qiymətləridir. Dünyanın bütün naz-nemətlərinin düzüldüyü toy süfrəsində qaşqabaqlı oturmuş bəy-gəlin varsa, o toy işgəncədir, zülümdür. Toydan öncəki mübahisələr və fikir ayrılıqları onların evliliklərinə böyük hədədir, fərqində deyillər. Var gücləri ilə dəbdəbəli mərasim təşkil edən tərəflər bahalı toyun prestij, vizit kart olduğu qənaətindədir. Dəbdəbəli toy, alınan borclar, çəkilən xərclər evlilik ərəfəsində tərəflərin beynini o qədər məşğul edir ki, fərqində olmadan depressiv vəziyyətə düşürlər, stresslə yol yoldaşı olurlar.

Ailə büdcəsini evlilikdən öncə formalaşdıran, bütün proses boyunca ağıllı pul xərcləyən, gərəksiz xırdalıqlara fikir verməyən, bir-birinin fikrinə hörmət edən, bahalı və lazımsız prosedurlardan imtina edən gənclərin ailə həyatı da anlayışlı keçir.

Əgər tərəflər maddi cəhətdən yaxşı vəziyyətdədirlərsə, adətən, xərclərin miqdarı ilə bağlı gerginlik olmur. Lakin bu halda da mübahisə ediləsi nəsə tapmaq olur. Bir tərəf evin qiymətinin yüksəkliyindən, digər tərəf isə bahalı cehizin vacibliyindən bəhs edir. Ümumi mənzərəni gördükdə insan, bu gənclərin bir-biri ilə evlənmə səbəblərinin bahalı ev və bir sərvət dəyərində cehiz olduğu qənaətinə gəlir. Danışılan mövzu ancaq maddi məsələlərdir, kim nə alacaq, kim nəyi haradan sifariş edəcək, qızılın qramı nə qədər olacaq, gəlinlik üçün nə qədər pul ödənəcək, gəlin hansı salonda bəzənəcək, bəy üçün boğçaya nələr qoyulacaq, gəlin xonçasında nə əskik dir və s. Müzakirə edilən mövzuların çeşidi arasında mənəvi məsələlər iynə ulduzu böyüklüyündə qalır, ya müzakirə edilmir, ya da səthi keçilir.





### Qonaq hesabına toy etmək

Düşüncələr də fərqlidir. Bəzi gənclər üçün toyda möhtəşəm təşkilatçılıq olmalıdır, hər şeyin ən gözəli, ən əlası, ən bahalısı istifadə edilməlidir, minlərlə manat müqabilində məşhur müğənnilər gətirilməlidir, yeyilməyəcək qədər yemək çeşidi düzülməlidir, bəy-gəlin salona qəribə təqdimatla girməlidir, toy plovu məşhur rəqqasların təqdimatında gəlməlidir, tortun hündürlüyü 2 metr olmalıdır və s. Sadaladıqca özüm yoruldum. Bütün bunların fonunda toyun sonu salınan pullar çəkilən xərcləri ödəyəcəkmi deyə qara-qara düşünən bəy və 800 manat ödəyib bəzəndiyi salondan məmnun qalmayan narazı gəlin varsa, bu toyun nə mənası var ki?

Bəziləri üçün isə sadə bir toy mərasimi kifayətdir. Yeganə tələb hər şeyin büdcə daxilində baş tutmasıdır – kişik bir toy zalı kirayələnibsə, qonaqlar üçün oturmağa normal şərait varsa, bir neçə çeşid yemək düzülübsə, məlahətli səsi olan tanınmamış bir müğənni oxuyursa, borc yoxdursa, toydan yığılan nəmər borclara getməyəcəksə, gəlinin üzündən xoşbəxtlik, bəyin üzündən məmnunluq yağırsa, sizcə, hər şey belə daha gözəl deyilmi?

Ailə adlı səfərə çıxanda bütün bunları nəzərə alın əziz gənclər. O səfərdən əliboş, narazı, yarımçıq qayıtmayın. Əksinə, daha uzun bir yol qət etmək, daha yaxşı yol yoldaşı olmaq, daha anlayışlı bir həyat yaşamaq üçün əvvəlcədən bəzi gərəksiz prosedurları, adətləri, tələbləri özünüzdən uzaqlaşdırın. Maddi çıxarlar üzərində qurulan ailənizin ömrü uzun olmaz. Menyusu 150-200 manat olan toy evləri yerinə sadə bir mərasim təşkil edin, qonaqların yazılacağı nəmər hesabına toy planlaşdıracağınız əvəzinə öz büdcənizə uyğun toy təşkil edin, 4-5 cür isti yemək, 10 cür içki, 30 cür qəlyanaltı olacaq toy süfrəsinə çəkəcəyiniz xərci həyatınıza yatırım edin, dünyanı gəzin, özünüzü inkişaf etdirin. Sizin toyunuzda 50 cür naz-nemət olması, kimin oxuması, hansısa bahalı nümayişlərin təşkili 3 gün sonra unudulacaq, amma borclar ailə həyatınız boyu xoşbəxtliyinizə kölgə salacaq.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
17 sentyabr
2024-cü il

# Bakıda taksilər niyə yoxa çıxır?

***Məlumdur ki, son günlər insanlar taksi qıtlığından şikayətçidirlər. Bəs, buna səbəb nədir? Niyə taksi tapmaq bu qədər çətinləşib. SİA mövzu ilə bağlı nəqliyyat eksperti Eldəniz Cəfərov və Aslan Əsədovun fikirlərini öyrənib. Eldəniz Cəfərov: "Bugünkü taksi islahatlarına qədər Bakı şəhərində 60 min taksi var idi.***




Təəssüf ki, bu 60 min taksinin bir qismi taksi xidmətini özlərinin şəxsi əyləncəsinə, maraqlarına istifadə edirdilər və həqiqətən də peşəkar, səviyyəli taksi xidməti göstərən vətəndaşlarımızın işinə mane olurdular. Onlar taksi sürücülərini gözdən salırdılar. Halbuki taksi ictimai nəqliyyatın bir qoludur. Burada xidmət təhlükəsiz və keyfiyyətli olmalıdır.

Cəmiyyətdə də taksidə olan müəyyən narazılıqlar vaxtaşırı üzə çıxır və mediada işıqlandırılırdı. Eyni zamanda çox təəssüf ki, bizim ölkəmizdə çalışan bəzi xarici taksi şirkətləri də Azərbaycan qanunvericiliyinə əməl etmir, taksi sürücülərimizi sutkalarla istismar edirdilər. Problem çıxdıqda onu həll etmirdilər. Taksi sürücülərinə çatacaq qeyri-nağd vəsaitləri vaxtında ödəmirdilər. Bir sözlə, taksi xaosu yaratmışdılar. Bu səbəbdən qanunvericilikdə dəyişiklik edilərək taksi islahatları aparıldı. Təbii ki, bu islahatlar aparılandan sonra taksidə istismar olunan avtomobillərin sayı da azaldı. Hal-hazırda 37 min taksi Bakı şəhərində fəaliyyət göstərir. Bu az rəqəm deyil. Çünki onsuz da yeni mövsümün başlanması ilə artıq marşruta yeni avtobuslar buraxılıb. 160 ədəd təmir olunmuş yeni komfortlu avtobus dövriyyəyə buraxılır və noyabr ayında da 170 ədəd elektrobus buraxılacaq. Bu say düşünürəm ki xeyli dərəcədə ictimai nəqliyyatın vəziyyətini yaxşılaşdıracaq və taksiyə bir o qədər də ehtiyac qalmayacaq. Amma bu o demək deyil ki, biz taksiylə bağlı olan problemləri kənara qoymalıyıq, heç də belə olmalı deyil. Taksi sürücüləri bizim vətəndaşlarımızdır. Onların sosial rifahını da biz düşünməliyik və hər hansı bir problem çıxdıqda müəyyən müvafiq qurumlar da bu problemləri dərhal həll etməlidir ki, bu problem şişməsin, necə ki, illər əvvəl qalmışdı. Amma indi düşünürəm ki, bu, yavaş-yavaş qaydasına düşür və 37 min taksi az rəqəm deyil. Sadəcə burada Bakı şəhərinin özü iri paytaxt şəhəridir, sənaye şəhəridir, özünün zəngin mədəni həyatı var. Bütün tədbirlərin hamısı Bakı şəhərinin mərkəzində keçirilib. Belə olan halda əlbəttə ki tıxac və sıxlıq da olur. Artıq Bakı şəhərinin 5 milyon əhalisi var və bunlar hamısı bu məsələyə təsir edir.

Vaxtilə əgər illər öncə ictimai nəqliyyat şaxələndirilsəydi tramvay xətləri sökülməsəydi, trolleybus xətləri sökülməsəydi, əksinə, onlar şəbəkə kimi genişləndirilsəydi, metro stansiyasının sayı artırılsaydı, indi biz bu problemi yaşamazdıq. İndi biz görürük ki, ictimai nəqliyyatın yükü, əsasən, avtobus seqmentinin üzərinə düşüb. Halbuki belə olmamalıdır. Proprosional paylanmalıdır. Bakı sakinlərinin imkanı olmalıdır ki həm qatarla, həm metroyla, həm tramvayla, trolleybusla, avtobusla, taksiylə rahat, sərbəst hərəkət etsinlər. Yəni bu şaxələnmə davam etməlidir.

Taksi sayının azalması, əlbəttə ki, burada qiymətə təsir edir. Çünki bilirsiniz ki, taksi tarifləri fiks tarifləri deyil, tövsiyə olunan tariflərdir və onlar tələb əsasında dəyişir. Qiymətlər yüksələ də, azala da bilər. Problemin həlli kimi mən təklif edərdim ki, taksi fəaliyyəti ilə məşğul olan vətəndaşlarımız fəaliyyətlərini leqallaşdırsınlar, lazım olan sənədləri əldə etsinlər, icazə əsasında fəaliyyət göstərsinlər. Həm öz gələcək sosial rifahlarını düşünsünlər, həm də ki keyfiyyətli xidmət göstərə bilsinlər".

Aslan Əsədov: "İstər "Uber", istər "Bolt", istərsə də digər alternativ taksi xidmətləri olsun, taksi xidmətlərinin əlçatan olmaması insanlarda müəyyən psixoloji gərginliyə səbəb ola bilər: "Əslində məsələnin mahiyyəti taksinin tapılıb-tapılmamasında deyil: "İstər komfort, istər adi ekonom qaydada taksi olsun sıxılıq zamanı qiymət hər zaman yüksəlir. Amma tələb az, təklif isə çox olduqda rəqabət mühiti yaranır. Bu, iqtisadiyyatın qızıl qanunudur. Məsələnin həlli üçün təklif edirəm ki, taksinin sayı çoxalsın. Yəni, taksilər çoxalarsa, real rəqabət mühiti avtomatik olaraq yaranacaq. Əgər belə olmasa, problemlər olduğu kimi qalacaq".

***Ayşən Vəli***

## Dünyanın ən yaşlı pişiyi 33 yaşında ölüb

Dünyanın ən yaşlı pişiyi olan Rozi 33 yaşında ölüb. "The Sun" qəzetinə istinadla xəbər verir ki, pişik İngiltərənin Norviç şəhərində 73 yaşlı sahibi Lila Brisset ilə birlikdə yaşayırdı. Pişiyin yaşı insan ömrü ilə hesablandıqda 152 ilə bərabərdir.

Qeyd olunur ki, 2023-cü ildə "Ginnesin Rekordlar Kitabı"nın nümayəndəsi pişiyin



sahibəsinə rəsmi olaraq dünyanın ən yaşlı pişiyi titulunun verilməsi üçün müraciət etməyi tövsiyə etsə də, qadın bunu etməyib.


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!




*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# "Formula 1" yarışı nə ilə yadda qaldı?

***"Son illərdə Azərbaycan bir çox beynəlxalq səviyyəli tədbirlərə peşəkarlıqla ev sahibliyi etməklə öz xoşməramlı niyyətini, töhfələrini dünyaya çatdırmış olur". Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Sahil Kərimli deyib.***



O bildirib ki, bildiyimiz kimi əvvəlki illərdən ölkəmizdə bir çox siyasi, mədəni, iqtisadi və idman xarakterli tədbirlər keçirilib: "Bu tədbirlərin keçirilməsi yenə də ardıcıl olaraq həyata keçirilir. Tədbirlərin keçirilməsi, xüsusilə də son günlərdə ölkəmizdə, Bakı şəhərində "Formula 1" kimi çox möhtəşəm və beynəlxalq səviyyəli yarışın keçirilməsi də ölkəmizin dünyada onsuz da artan nüfuzunu bir qədər də zirvələrə doğru aparır. Azərbaycanın, xüsusilə də Bakı şəhərinin ecazkar gözəlliyini, ölkəmizin, xalqımızın qonaqpərvərliyini və digər üstün cəhətlərimizi dünyaya, beynəlxalq arenaya çatdırılmasında böyük rol oynayır. Bilirsiniz ki, "Formula 1" yarışları dünyanın bir çox, onlarla ölkəsində canlı yayımlanır. Azərbaycanın paytaxtı Bakı şəhərindən açılış mərasimində himnimizin sədaları bütün dünyaya səs salır. Bu hər bir Azərbaycan vətəndaşını sevindirir. Bu, bizim üçün böyük fəxr və qürur mənbəyidir.

Eyni zamanda, Azərbaycanın idman ölkəsi olmasını, idmana necə böyük önəm verməsini bütün dünyaya nümayiş etdirmiş oluruq. Bu yarışların ölkəmizdə keçirilməsinin bir çox üstünlükləri var. Hesab edirəm ki, Azərbaycan bu tutduğu siyasi yola gələcəkdə də sadiq qalaraq yeni beynəlxalq səviyyəli yarışların, digər iqtisadi və siyasi, mədəni tədbirlərin keçirilməsini öz üzərinə götürəcək. Bu istiqamətdə yenə də beynəlxalq aləmə töhfəsini vermiş olacaqdır".

***Söylü Ağazadə***

## BAŞSAĞLIĞI

Sumqayıt Şəhər Ağsaqqallar Şurasının və Şəhər Veteranlar Şurasının üzvü Respublikanın Əmək Veteranı Hilal Rza oğlu Əliyevə bacısı

**Fərəhnisə xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin.

* * *

Əməkdar incəsənət xadimi, yazıçı-rejissor Ağalar İdrisoğlu və yazıçı-jurnalist İlhamə xanım Məhəmmədqızı ailə üzvlərilə birlikdə, Respublikanın Əməkdar Veteranı, tanınmış pedaqoq Hilal Rza oğlu Əliyevə bacısı

**Fərəhnisə xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin.

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 2700**